www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 14 fevral 2018-ci il Çərşənbə № 35 (6924) Qiymәti 60 qәpik

**Xəbər**

## Gəncədə 11 sinif şagirdi bıçaqla qətlə yetirildi

yazısı səh.14-də

**Gündəm**

### "Korrupsiyanın kökünü kəsəcəyik"



Vergilər naziri Mikayıl Cabbarov sahibkarlarla görüşündə mühüm açıqlamalar verdi; **nazir:** "Nə qədər ki, gec deyil bu işi dayandırın"

yazısı səh.6-da

### ABŞ Azərbaycandakı ən böyük təşkilatının maliyyəsini kəsir

yazısı səh.6-da

### Prezidentliyə iddialıların sayı artır - 11 oldular

yazısı səh.13-də

### Qərb Saakaşvilini yarıyolda qoydu

yazısı səh.7-də

### Prezidentin İrəvan hədəfinin arxasındakı mesajlar...

yazısı səh.13-də

### Ölkədə quraqlıq və içməli su qıtlığı gözlənilir

yazısı səh.12-də

### Şəhid qızının ölümünə görə işdən çıxarılan müstəntiq danışdı

yazısı səh.3-də

### Bayılda sürüşmə ən təhlükəli həddə

yazısı səh.10-da

### AzTV sədrini öldürmək istəyənlərin işi məhkəmədə

yazısı səh.2-də

### Ermənistan düşdüyü siyasi-iqtisadi bataqlıdan çıxış yolu axtarışında

yazısı səh.11-də

### "Quş qripi" ilə bağlı rəsmi xəbərdarlıq olundu

yazısı səh.12-də

### Jurnalistika niyə vaxtsız ölümlərə səbəb olur...

yazısı səh.15-də

## Dövlətdən dini mühitlə bağlı vacib addım

# İLAHİYYAT İNSTİTUTUNUN YARADILMASININ PƏRDƏARXASI - XARİCİ FAKTOR

Kənar dövlətlərin din pərdəsi altında Azərbaycana müdaxiləsi hakimiyyəti hərəkətə keçirdi; İran və Səudiyyənin "dindar ixracı"nı önləmək üçün yeni təsisat yaradılır; proses Şeyximizin səlahiyyətlərini bir qədər də azaldır




yazısı səh.5-də

## İranın İrəvan səfiri erməniləri pərt elədi - "Qarabağ münaqişəsi bitməyincə..."

Tehrandan İrəvana imtina kimi şərt; diplomatdan düşmənə iynəli mesajlar; ortaq layihələr üçün böyük sərmayələri işğalçı ölkə heç vaxt tapa bilməyəcək, əgər... yazısı səh.7-də



*Qabil Hüseynli:*

### "Bu, müxalifətin indiyə qədər buraxdığı ən böyük səhvdir"

yazısı səh.5-də



### Akif Çovdarov həbsdən qurtulmaq yolları arayır

yazısı səh.3-də



*Əflatun Amaşov:*

### "Əli Həsənovun tənqid olunması ədalətli deyil"

yazısı səh. 8 və 9-da




## Martda Azərbaycan və İran müştərək avtomobil zavodunun açılışı olacaq

**Azərbaycan və İran müştərək avtomobil istehsalı zavodunun rəsmi açılışı bu ilin mart ayında baş tutacaq. Bunu APA-nın Tehran bürosuna açıqlamasında "İran Xodro" şirkətin baş direktoru Haşim Yekke Zare deyib.**

O deyib ki, bu müştərək şirkət Azərbaycanla birgə yaradılıb. Qeyd edək ki, avtomobil zavodu Neftçala sənaye məhəlləsində fəaliyyət göstərəcək.

"Şirkətdə İran tərəfi 25%, Azərbaycan tərəfi isə 75% paya malikdir. Şirkət Rana və Dena tipli avtomobillər istehsal edəcək", - deyə baş direktor vurğulayıb.

Haşim Yekke Zare qeyd edib ki, zavod fəaliyyətə başladıqdan sonra Azərbaycan tərəfi investisiya yatırarsa, bu ölkədə avtomobil hissələri də istehsal ediləcək.

## BP və tərəfdaşları Azərbaycan iqtisadiyyatına 69 mlrd. dollar investisiya yatırıb

**"25 il ərzində bizim məxsus olduğumuz layihələr üzrə partnyorlarla birlikdə Azərbaycan iqtisadiyyatına 69 mlrd. dollardan artıq investisiya qoyulub".**

"APA-Economics" xəbər verir ki, bunu "Vergilər. Şəffaflıq. İnkişaf" adlı konfransda "BP-Azərbaycan" şirkətinin vitse-prezidenti Bəxtiyar Aslanbəyli bildirib.

B.Aslanbəylinin sözlərinə görə, təkcə Azəri-Çıraq-Günəşli layihəsi üzrə 3,3 mlrd. barel neft hasil olunub.

"32 milyard kubmetr səmt qazı təmənnasız olaraq hökumətimizə təqdim edilib. "Şahdəniz" layihəsi üzrə 89 milyard kubmetr qaz hasil olunub və 176 milyon barel kondensat nefti dövlətə təhvil verilib", - deyə B.Aslanbəyli əlavə edib.

## DTX və polis Bakıda birgə əməliyyat keçirib

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və polis Bakıda birgə əməliyyat keçirib. APA-nın məlumatına görə, paytaxtın Nizami rayonunda həyata keçirilən əməliyyat nəticəsində Ağcabədi rayon sakinləri - Tugay İmanov, Adəm İsmayılov və Ordubad sakini Hacı Qurbanov 400 qram civəni satarkən tutulublar.**

## Suriyada 600 Rusiya vətəndaşı ölüb?

**"Suriyada 600 rus hərbçisinin öldürülməsi barədə xəbər həqiqətə uyğun deyil". Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dimitri Peskov jurnalistlərə açıqlamasında deyib.**

"Biz Suriya ordusuna yardım məqsədilə hərbi əməliyyatlarda iştirak edən Rusiya Müdafiə Nazirliyinin hərbçiləri haqda məlumata sahibik. Suriyada ola biləcək digər Rusiya vətəndaşları haqqında heç bir informasiyaya malik deyilik, bu cür suallarla bağlı Müdafiə Nazirliyinə müraciət etməyinizi məsləhət görürük".

Qeyd edək ki, Rusiya KİV-i daha iki rusiyalının ölümü barədə məlumat yaymışdı.

## Yağış yağacaq

**Bakı və Abşeron yarımadasında fevralın 14-də arabir yağış yağacağı, gecə və səhər bəzi yerlərdə intensiv olacağı gözlənilir. Gecə və səhər arabir güclənən şimal küləyi əsəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturunun Bakıda və Abşeron yarımadasında gecə 2-4, gündüz 5-7 dərəcə isti olacağı gözlənilir.**

Atmosfer təzyiqi 761 mm civə sütunundan 771 mm civə sütununa yüksələcək, nisbi rütubət 80-90 faiz təşkil edəcək.

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01

# "Sovetski"də köçürmə prosesinin ikinci mərhələsi başlanacaq

**Yaxın günlərdə Nazirlər Kabineti Bakı şəhərinin "Sovetski" məhəlləsində köçürmə prosesinin ikinci mərhələsinin başlanması barədə qərar verəcək.**

Bunu Yasamal Rayon İcra Hakimiyyətində 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş toplantıda rayon icra hakimiyyətinin başçısı Əziz Əzizov deyib. O bildirib ki, prezident İlham Əliyev tərəfindən "Sovetski" adlanan ərazidəki istifadəyə yararsız evlərin satın alınması işlərinin davam etdirilməsi məqsədilə 2018-ci ildə "Təzəpir" məscidinin yuxarı hissəsində Nəriman Nərimanov prospekti ilə İsmayıl bəy Qutqaşınlı küçəsi arasındakı evlərin satın alınması və həmin ərazinin təmizlənməsi barədə müvafiq tapşırıqlar verilib.



**İH başçısı nəzərə çatdırıb ki, 2018-ci ildə həyata keçiriləcək növbəti mərhələdə 2010 yaşayış və qeyri-yaşayış obyektlərinin satın alınması, onların sökülərək ərazinin təmizlənməsi qarşıya qoyulmuş başlıca vəzifələrdən biridir:** "Artıq bu məqsədlə vəsait ayrılıb, qiymətləndirici və söküntü təşkilatlarının müəyyənləşdirilməsi məqsədilə tenderlər keçirilib. Yaxın günlərdə ərazidə köçürmə tədbirlərinin başlanması ilə əlaqədar Nazirlər Kabinetinin yeni qərarı gözlənilir".(APA)

Yasamal Rayon İcra Hakimiyyətinin başçısı qeyd edib ki, "Sovetski" ərazisində Bakı şəhərinin Baş Planının icrası ilə əlaqədar söküntüyə məruz qalmış «Hacı Cavad» məscidinin Mətbuat prospektində daha münasib və mükəmməl layihə əsasında yeni binası inşa olunur. Tikinti işləri artıq başa çatdırılıb, hazırda tərtibat işləri icra olunur, məscidin yaxın zamanda dindarların istifadəsinə verilməsi nəzərdə tutulur: "Mədəniyyət və Turizm Nazirliyi xətti ilə rayonda daha bir məsciddə - «İmam Hüseyn» məscidində əsaslı təmir işləri aparılır, yaxın gələcəkdə paytaxtımızı daha bir dini tarixi memarlıq abidəsi bəzəyəcək".



## "Milan Məhkəməsi ölkəmə və mənə qarşı şər-böhtan kampaniyasına son qoydu" - Elxan Süleymanov

**"13 fevral 2018-ci ildə Milan Məhkəməsində Avropanın 2 ildən çox müddətdir ki, yaratdığı şər və böhtan kampaniyasının qurbanına çevrilmiş Avropanın tanınmış siyasətçilərindən biri olan Luka Volontenin çirkli pulların yuyulması ilə bağlı məhkəmə prosesi başa çatdı. Luka Volonte uzun sürən təhqir və mənəvi əzablardan Milan Məhkəməsinin qərarı ilə bəraət aldı".**

Bunu Şamaxının millət vəkili Elxan Süleymanov müsavat.com-a göndərdiyi açıqlamada bildirib.

Elxan Süleymanov daha sonra qeyd edib: "Ölkəmə, mənə və Luka Volonteyə qarşı Avropanın şər və böhtan kampaniyasının bütün təşkilatçılarına, ermənilərə, Azərbaycandakı ermənilərə və ermənipərəstlərə dəstək verən hər kəsə dərin hüznlə başsağlığı verirəm".

❑ Musavat.com

Kapital Bank

## "Kapital Bank"da yeni təyinatlar

**"Kapital Bank"ın 2 departamentinə yeni təyinat olub. Bankdan verilən məlumata görə, Fərid Səmədov İT İnnovasiya və İnkişaf departamentinin, Renad Cəfərov isə İT İnfrastruktur departamentinin direktoru təyin edilib.**

İT İnfrastruktur departamentinin əvvəlki direktoru Əli Axundov isə İnformasiya Təhlükəsizliyi üzrə Müşavir vəzifəsinə təyin edilib.

## Xarici jurnalistlər Qarabağa qanunsuz səfər edib

**Xarici jurnalistlər qrupu Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfər edib.**

Modern.az Ermənistan KİV-nə istinadən xəbər verir ki, Latviya, Əlcəzair, Fransa, Rusiya, İtaliya və Macarıstandan gələn jurnalistlər döyüş postlarına baxış keçiriblər.

Onlar həmçinin hərbi hissələrdəki şəraitlə maraqlanıblar. Xarici jurnalistlərin Qarabağda separatçı hərəkatın başlanmasının 30 illiyi ilə bağlı çəkilişlər aparacağı gözlənilir.







## Türkiyə və İranda rominqdə olan "Nar" istifadəçilərinə "Full" paketlərindən internet bonusu

nar
Gəlin birlikdə böyüyək

**13 fevral 2018-ci il tarixindən etibarən, xaricə səyahət edən "Nar" istifadəçiləri "Full" paketlərinin üstünlüklərindən daha çox faydalana biləcəklər. Belə ki, Türkiyə və ya İranda rominqdə olan "Nar" istifadəçiləri 2 GB-dək internet bonusu qazanacaqlar. Mobil rabitə bazarında unikal bir təklif olan "Full" paketlərinin əsas özəlliyi istifadə edilməyən bonusların növbəti aya keçməsidir. Beləliklə, rominqdə olan "Full" istifadəçiləri də toplanan bonuslardan növbəti ayda istifadə etmək fürsəti qazanırlar. Bonuslardan "Full 29", "Full 39" və ya "Full 49" paketlərindən birinə qoşulmuş abunəçilər faydalana bilərlər.**

**Xatırladaq ki, "Nar"-ın "Full" paketlərindən birinə qoşulan abunəçilər bu sərfəli təklif sayəsində bol ünsiyyətdən həzz almanın sevincini yaşayırlar. Ölkədaxili danışıq dəqiqələri və bol internetin daxil olduğu paketlərin əsas özəlliyi qazanılan bonusların növbəti aya keçməsidir. Abunəçilərin arzu və istəklərini hər zaman nəzərə alan "Nar" istifadə edilməyən bonusların bir sonrakı aya keçməsini məhz "Full" paketi ilə təklif etməklə, eyni fürsətdən rominqdə olan abunəçilərin də yararlanmasını təmin etdi.**

**"Full" paketləri haqqında ətraflı məlumatı mobil operatorun internet səhifəsindən öyrənmək olar: https://www.nar.az/full.**

**"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6000-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

## 31 yaşlı Xudat sakini özünü bıçaqlayaraq intihar edib

**Xudatda intihar faktı qeydə alınıb. Xudat şəhər sakini, 1987-ci il təvəllüdlü Əhmədov İmran Sərdar oğlu özünü bıçaqlayaraq öldürüb.**

Onun ruhi xəstə olduğu bildirilir.

## AzTV sədrini öldürməyə cəhddə təqsirləndirilən şəxslərin cinayət işi məhkəmədə

**"Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri" QSC-nin sədri Arif Alışanovu öldürməyə cəhddə, ona qarşı dələduzluq etməkdə və digər cinayətlərdə təqsirləndirilən Şücayət Əkbərov, Qoçalı Cəbiyev, Zöhrab Şirinov və Aqşin Hüseynovun barəsində olan cinayət işi üzrə ibtidai istintaq yekunlaşıb.**

APA-nın məlumatına görə, həmin şəxslərin cinayət işi baxılmaq üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Yaxın vaxtlarda cinayət işi üzrə məhkəmə iclası başlayacaq.

Qeyd edək ki, təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 29,120-ci (qəsdən adam öldürməyə cəhd), 178-ci (dələduzluq) və digər maddələrinə əsasən ittiham olunurlar.

YENİ MÜSAVAT
N 35 (6924) 14 fevral 2018

# Akif Çovdarov həbsdən qurtulmağın yollarını arayır

## Həbsdəki general çeşidli xəstəlikləri haqda sənədlər ortaya qoyub



**Ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi Akif Çovdarovun səhhətində problemlərin olması məsələsi yenidən gündəmə gəlib. Onun vəkili Sadiq Rəsulov deyib ki, Akif Çovdarov Bakı İstintaq Təcridxanasının tibb məntəqəsində saxlanılır.**

"Ürəyinin çox zəif olması üzündən Akif Çovdarov iki dəfə kardioloji müayinədən keçirilib. Onu həm Kardiologiya İnstitutunun mütəxəssisi, həm də tibb məntəqəsinin özünün dəvət etdiyi mütəxəssis müayinə edib. Müayinələrin nəticələri Almaniyaya - Akif Çovdarovun şəxsi həkiminə göndərilib. Almaniyadan aldığımız cavaba əsasən, hazırda xəstənin vəziyyəti ağırdır və Almaniyada yerləşən klinikada uzunmüddətli müalicə tələb olunur ki, bu da hazırkı vəziyyətdə qeyri-mümkündür", - vəkil virtualaz.org-a bildirib.

Əlavə edib ki, Bakı İstintaq Təcridxanasının tibb məntəqəsində kardioloq olmadığı üçün hazırda Akif Çovdarov "özü bildiyi kimi" müalicə olunur və tibbi preparatlardan istifadə etməklə sağ qalmağa çalışır.

Akif Çovdarov həbsə alınandan sonra aydın olmuşdu ki, mədəsi amputasiya olunduğuna görə qida borusu birbaşa bağırsağa bilrləşdirilib, ürəyindən əməliyyat olunub. Bu əməliyyatlar Akif Çovdarov MTN-ə yeni qədəm basdığı 2005-2006-cı illərə təsadüf edib. Buna baxmayaraq, o, xəstə olduğuna görə gedib müalicəsi ilə məşğul olmayıb, işdə qalıb. Bu gün ittiham aktında yer alan və almayan cinayətlərin bir çoxunda əsas şəxs olub. 15 noyabr 2015-ci ildə həbsə alınandan sonra Bakı İstintaq Təcridxanasına köçürüləndən az sonra Akif Çovdarov çeşidli xəstəlikləri haqda sənədlərini ortaya qoyub və o gündən İstintaq Təcridxanasının tibbi-sanitar hissəsində saxlanılmaqdadır.

Həbsə düşəndən sonra xəstəlikləri yadına düşən təkcə Akif Çovdarov deyil. Onun iş yoldaşı, general Sübahir Qurbanov da həbsə düşən kimi xəstəliklərini xüsusi qabartmaqla barəsində həbslə əlaqəli olmayan tədbir seçilməsini tələb edirdi. Bu adamlar vəzifədə olduqları illərdə xəstə olublar, amma xəstəliklərini əsas gətirib işdən çıxmaq istəməyiblər. Nədən həbsə düşən kimi xəstə olduqları yadlarına düşüb? Bu təsadüfdür? Əlbəttə ki, yox. Azadlığa çıxmaq üçün aranan yollardan biri də xəstəliyi əsas gətirməklə cəzadan yayınmaqdır. Ləğv edilmiş MTN-in sabiq generalları da bunu bilməmiş deyillər.

Həbs edilənə qədər Milli Təhlükəsizlik Nazirliyində Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi vəzifəsində çalışmış Akif Çovdarovun adı "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun qətl işinə, "Azadlıq" qəzetinin əməkdaşı Aqil Xəlilin döyülməsinə, bıçaqlanmasına, Beynəlxalq Universitetin prorektoru Mahir Abdullayevin oğurlanması olayına qarışmışdı. Həbsə alınandan sonra sadalanan hadisələrlə bağlı ittihamlar olmadı, bu mövzularla bağlı Akif Çovdarovun sorğulanması haqda məlumatlar açıqlanmadı.

1952-ci ilin avqustunda Gürcüstanın Marneuli rayonunda anadan olub. 1974-cü ildə Azərbaycan Politexnik İnstitutunu, 1986-cı ildə SSRİ DİN Akademiyasını bitirib.

Eldar Mahmudovun "sağ əli" hesab edilən Akif Çovdarov şefi nazir vəzifəsindən azad ediləndən sonra 7-14 noyabr 2015-ci il tarixində keçmiş MTN-in sərəncamında olub, 2015-ci il noyabrın 14-də keçmiş MTN-in müvafiq əmrinə əsasən, xidməti uyğunsuzluğa görə ehtiyata buraxılıb, 1 gün sonra isə həbs edilib.

Ötən il oktyabrın 30-da Akif Çovdarov Sabunçu Rayon Məhkəməsinin qərarı ilə 12 il müddətinə azadlıqdan məhrum olunub.

❑ **E.MƏMMƏDƏLİYEV,**
❑ **"Yeni Müsavat"**

# Şəhid qızının ölümünə görə işdən çıxarılan müstəntiq danışdı

## "Rəhim istintaqa gələnə qədər onun atası Ariflə 2 dəfə iş yerində görüşdük"

**Şəhid qızını maşınla vurub öldürən, hadisə yerindən qaçan, 20 gün sonra isə polisə təslim olan gənc hakim qarşısına çıxarılıb. O, iş adamının oğludur.**



Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində ölümlə nəticələnən qəza törətməkdə təqsirləndirilən 17 yaşlı Rəhimov Rəhim Akif oğlunun cinayət işi üzrə məhkəmə iclası davam edib. İşə hakim Novruz Kərimovun sədrliyi ilə baxılıb.

Məhkəmədə Vüqar Abbasov şahid qismində dindirilib. Vüqar Abbasov bildirib ki, bir müddət əvvəl işlədiyi vəzifədən sərəncama götürülüb. "Rəhimi cinayət işinin istintaqı zamanı tanımışam. Hadisə olan vaxtı Səbayel Rayon Polis İdarəsində müstəntiq vəzifəsində çalışırdım. Hadisə noyabrın 8-də baş verib. Məlumat daxil oldu. Dərhal hadisə yerinə getdim. Ora çatanda hadisə yerini mühafizə elədim. Maşının üstündə nömrə yox idi. Axtarış elədim. Nömrə baqajdan çıxdı. Polislərdən soruşdum, dedilər, sürücü yoxdur. Daha sonra Əmrulla adlı bir şəxs çıxdı. Dedi ki, hadisəni törətmişəm. Birinci meyiti "morq"a apardıq. Sonra idarəyə getdim. Əmrullanı dindirdim. Onun yalan danışdığını bildim. Dərhal sonra cinayət işi açdım"- deyə şahid bildirib. **V.Abbasov bildirib ki, hadisə şahidləri qəzanı cavan uşaq törətdiyini deyiblər:** "Mən soruşsam da, həmin cavan oğlanı tapa bilmədik. Polis nəfəri də mənə yaxınlaşıb qəzanı törədən şəxsin burda olduğunu dedi. Maşınlara, ətrafa baxdıq, amma Rəhim ortalıqda yox idi".

**Keçmiş müstəntiq bildirib ki, sonra Rəhim Rəhimovun atası könüllü şəkildə idarəyə gəlib və qəzanı oğlunun törətdiyini etiraf edib:** "Atasına bildirdik ki, oğlunu gətirsin. Noyabrın 14-də axtarışa verdik, 20-də gəldi".

**Müstəntiqin sonradan dedikləri isə daha maraqlı olub. O, iş adamı Arif Rəhimovla görüşdüyünü deyib:**

"Rəhim istintaqa gələnə qədər onun atası Ariflə 2 dəfə iş yerində görüşdük. İkinci dəfə görüşümüz zamanı oğluna kömək etməyimi istədi. Lakin biz istintaqın maraqları ilə hərəkət etdik. Axtarışa veriləndən sonra evlərinə və universitetə əməliyyatçılar getdi. Lakin həmin yerlərdə tapılmadı".

**Rəhim Rəhimov isə bildirib ki, hadisəni törədəndən sonra hər gün universitetə gedib.**

**O, əməliyyatçıların universitetə gəldiklərini də təsdiqləyib. Amma əməliyyatçılar onu yox, dostlarını aparıblar:** "Mənim davamiyyətimə baxa bilərsiz. Bir dəfə əməliyyatçılar gəldi. İki dostumu yanımdan apardılar ifadə almağa. Lakin mənə heç kim heç nə demədi".

R.Rəhimov "Jeep Grand Cherokee" markalı 90-FO-007 dövlət nömrə nişanlı avtomobillə yolu keçmək istəyən 1975-ci il təvəllüdlü Əkbərova Könül Elton qızını vurub və piyada vəfat edib. Sürücü isə hadisə yerindən qaçıb.

3 uşaq anası olan mərhum Könül Əkbərova şəhid Elton Əkbərovun qızıdır. Həbs edilən R.Rəhumov iş adamı Akif Rəhimovun oğludur. Akif Rəhimov "Xırdalan Xəz" ATSC-nin rəhbəri, qardaşı Məmməd Rəhimov isə "Yeganə" şadlıq sarayının sahibidir.

❑ **İlkin MURADOV,**

# Erməni fitnəsinə uyan və Milanın biabır etdiyi "mestnıy patriotlar"



**Elşad MƏMMƏDLİ**
elshad1978@mail.ru

**Müasir dövrdə dövlət olaraq önə çıxmaq, qalib olmaq üçün 3 əsas metod var: İnformasiya məkanında intellektual mübarizə, lobbi fəaliyyətindən yararlanmaq və dünyada sözü keçən ictimai-siyasi xadimləri (rəy liderlərini) özünə dost etmək.**

Qarabağ kimi mühüm problemi, işğal altında torpaqları olan Azərbaycanın isə dünya boyunca -beynəlxalq qurumlarda, beyin mərkəzlərində, aparıcı dövlətlərdə proseslərə təsir etmək imkanında olan şəxsləri, qüvvələri özünə daha çox cəlb etməsi ehtiyacı təbiidir. Bir vaxtlar bəziləri gileylənirdi ki, Azərbaycan beynəlxalq aləmdə təbliğat imkanlarından maksimum yararlanmır, intellektual mübarizədə, informasiya müharibəsində zəifdir və s. Amma biz dövlətimiz naminə təbliğatı gücləndirəndə, beynəlxalq arenada mühüm siyasi postlar daşıyan şəxsləri özümüzə dost edəndə, ermənilərlə intellektual mübarizədə önə çıxanda yuxarıda qeyd edilən - "Azərbaycan informasiya mübarizəsinə əhəmiyyət vermir, dostlar qazanmır" kimi iddialarda bulunmuş bir çox "patriotların" ermənilərin dəyirmanına su tökməyə başlamasının şahidi olduq...

Söhbət nədən gedir; Azərbaycan xüsusilə 2011-2016-cı illərdə Avropa Şurası Parlament Assambleyasında çox uğurlu, planlı fəaliyyət nəticəsində mövqelərini kifayət qədər gücləndirdi, dövlətimiz əleyhinə erməni təbliğat maşınını sıradan çıxardı. Həmin dövrdə ermənilərin, erməni lobbisinin AŞ PA-da Azərbaycana qarşı hazırladıqları bir çox qətnamələrin qəbuluna imkan verilmədi. Eyni zamanda Azərbaycanın lehinə xeyli qətnamələr çıxarıldı, qərarlar verildi. Bunlardan təkcə birini qeyd etmək kifayətdir ki, bu qurumda ermənilərin burnunu ovduğumuz görünsün. Söhbət bu qurumda o zaman Azərbaycanı AŞ PA-da təmsil edən deputat Elxan Süleymanovun təşəbbüsü ilə hazırlanmış və qəbul edilmiş 2085 (2016) saylı qətnamədən gedir. Bu sənəddə AŞ PA tarixində ilk dəfə olaraq Ermənistan açıq-aydın şəkildə işğalçı kimi tanındı! Həmin qətnamədən sonra AŞ PA-nın o zamankı prezidenti Pedro Aqramunt açıqlama verərək, Ermənistanı təcavüzkar adlandırdı. Ermənilərin bundan narahatlığı və təlaşı bu gün də davam edir. Çünki bu sənəd AŞ PA-nın təsir coğrafiyasında Azərbaycanı tam qoruyur və geriyə dönüşü yoxdur.

Həmçinin qeyd edilən dönəmdə erməni lobbisinin birbaşa sifarişi ilə Azərbaycana qarşı hazırlanan sanksiya xarakterli sənədin qəbul olunmasının qarşısı alındı.

Həmin dövrlərdə Azərbaycanın haqq savaşında, ermənilərin ifşa edilməsi, dövlətimizin Avropa ilə düşmən edilməsi kimi məkrli ermənipərəst siyasətin qarşısının alınmasında bir sıra AŞ PA üzvləri ölkəmizə dəstək verdilər. Bu proseslərdə Azərbaycanı müdafiə edənlər sırasında AŞ PA-nın sabiq vitse-prezidenti, italiyalı deputat Luka Volonte öndə oldu.

Əlbəttə, bütün bunlar erməni lobbisini xüsusi narahat etməyə bilməzdi. Belə bir həssas, erməni təbliğat maşını darmadağın edildiyi vaxtda - təxminən 2016-cı ilin ikinci yarısından Azərbaycana qarşı məkrli bir kampaniyaya start verildi. Özü də çox hiyləgərcəsinə hazırlanmış bir plan quruldu ki, Azərbaycan cəmiyyətində də hansısa bir şübhə toxumu səpməyə nail olsunlar. İddia ondan ibarət idi ki, Azərbaycan bu prosesləri pulla idarə edir. Burada bir qeyd edək; hər birimiz dövlətimizin maraqları naminə, Qarabağ mübarizəsində canımızdan keçəcəyimizi dönə-dönə hər zaman vurğulayırıq. Məgər dünya boyunca dövlətimizin maraqları üçün gərəkdiyi anda pulumuzdan keçməməliyikmi?! Lobbi anlayışından xəbərdar olmayanlar, azca dünyanın gərdişinə bir baxsın!..

AŞ PA-da Azərbaycana tam uduzan ermənilər bunu "AŞ PA-da korrupsiya" kimi bəyan edib, bir fitnə saldılar. Azərbaycan üçün AŞ PA-da mühüm işlər görüldüyü bir vaxtda bununla Azərbaycanın dostlarını sıradan çıxarmağa çalışdılar. Xüsusilə Luka Volonteyə qarşı bir proses başladı. Qarabağla bağlı AŞ PA qəbul olunmuş iki mühüm qətnamənin müəllifi olan deputat Elxan Süleymanovu da ermənilər və ermənipərəstlər bu böhtan kampaniyasına qatdılar. Ermənipərəst beyin mərkəzlərində hazırlanan hiyləgər projedə Azərbaycana qarşı kampaniyaya nə qədər acı olsa da, "sapı özümüzdən olan baltalar" da qoşuldular. Xüsusilə Əli Kərimlinin ətrafında olan bir qaragüruh kəsim Qarabağ uğrunda gedən bu intellektual mübarizədə öz fərdi maraqları üçün erməni dəyirmanına 2 ildən çox su tökdülər.

Amma sonda nə baş verdi? Erməni kələyi üzrə bu iddialara dair İtaliyada aparılan araşdırmaların sonunda 13 fevral 2018-ci ildə Milan Məhkəməsi Azərbaycana, Volonteyə, Elxan Süleymanova qarşı deyilənlərin şər-böhtan olması qərarını verdi. Faktiki olaraq bu işdə adı keçən Azərbaycanın dostu Volonteyə bəraət verildi. Bu iş aydınlaşdı, şəxslərə, dövlətimizə qarşı iddialar puç oldu. Amma qaragüruhun, daxili düşmənlərimizin (hansı ki, özlərini pafosla "vətənpərvər" elan edirlər) yer aldığı fitnəkar, tormozlayıcı proje nəticəsində biz AŞ PA-da Qarabağ mübarizəsində azı 2 il geri düşdük. Utanırsınızmı?

YENİ MÜSAVAT
N 35 (6924) 14 fevral 2018

# Milli Məclisdə yerli icra orqanları və bələdiyyələrə qarşı sərt ittiham

## Deputat: "Bələdiyyələr yerli icra hakimiyyətləri ilə birlikdə cinayət sövdələşməsinə gedib sahibkarların marağına toxunur"; Milli Məclis "Ələt azad iqtisadi zonası haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun layihələrini ilk oxunuşda qəbul etdi

**Fevralın 13-də Milli Məclisin növbəti plenar iclası spiker Oqtay Əsədovun sədrliyi ilə keçirildi. İlk olaraq Konstitusiya Məhkəməsi haqqında qanuna əlavə və dəyişikliklə əlaqədar Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi.**



Sözügedən layihədə Avropa Məhkəməsinə seçilmiş hakimin Konstitusiya Məhkəməsinə seçilmiş hakimin statusuna bərabər tutulmasını özündə ehtiva edən dəyişiklikdən söhbət gedir. Deputatlar yekdilliklə dəyişikliyə səs verdilər.

2005-ci ildən Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri vəzifəsində çalışan Ramiz Rzayevin yenidən Ali Məhkəmənin hakimi təyin edilməsi haqqında qanun layihəsi də Ə.Hüseynlinin təqdimatından sonra qəbul olundu. R.Rzayev çıxış edərək, prezidentə, parlamentə, Məhkəmə-Hüquq Şurasına təşəkkür etdi, etimadı doğruldacağını bildirdi.

Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsinin sədri Qasım Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi barədə təklif də qəbul olundu.

**Daha sonra ədliyyə nazirinin müavini Vilayət Zahirov bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsini təqdim etdi. V.Zahirov bildirdi ki, bəzi bələdiyyələrin fəaliyyətində çox ciddi qanun pozuntuları da müəyyən olunub:** "24 belə fakta hüquqi qiymət verilməsi üçün prokurorluğa və digər hüquq mühafizə orqanlarına göndərilib. Bu faktlarla bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırmalar aparılıb və 15 fakt üzrə cinayət işi başlanılıb. Qanun pozuntuları torpaq sahəsinin qanunsuz icarəyə verilməsi və icarə haqqının bələdiyyə büdcəsinə keçirilməməsi, təmir-abadlıq işləri ilə bağlı bələdiyyə vəsaitinin qanunsuz, başqa məqsədlər üçün xərclənməsi, ayrı-ayrı bələdiyyələrin sədri tərəfindən təkbaşına qərar qəbul olunmaqla kollegiyalıq prinsipinin pozulması, büdcə vəsaitlərinin qanunsuz silinməsi və digər məsələlərlə bağlı olub".

Deputat Elmira Axundova bildirdi ki, bölgələrdə bələdiyyə sədri təyin olunan şəxslər əksər vaxtı bu vəzifələri icra etməyə hazır olmur, ona görə də bələdiyyə sədrləri təlimlərə cəlb edilməlidir. E.Axundova dedi ki, bələdiyyələrin problemlərinin başlıca səbəbi onların icra hakimiyyətlərindən asılı olmalarıdır.

**Bu zaman sual üçün yazılan Regional məsələlər komitəsinin sədri Arif Rəhimzadə söz alaraq narazılığını bildirdi. O dedi ki, ədliyyə nazirinin müavini Vilayət Zahirovun bələdiyyələrlə bağlı məruzəsindən sonra ona söz verilməli idi:** "Çünki bu məruzə parlamentin Regional məsələlər komitəsinin müzakirə olunub, müzakirələrlə bağlı məlumat verməli idim. İstəmirsinizsə, ümumiyyətlə, heç danışmayım. Mənim çıxışım yoxdur, sadəcə, bunu demək istəyirdim".

**Parlamentin sədri Oqtay Əsədov isə bildirdi ki, bu şəkildə irad bildirmək lazım deyil:** "Siz komitə sədri kimi müzakirələrdə iştirak etmək istəyirdisinizsə, bu barədə əvvəlcədən məlumat verməli idiniz. Nə vaxt istəyirdinizsə, deyərdiniz, çıxış edərdiniz".

**Deputat Qüdrət Həsənquliyev bildirdi ki, hər il müvafiq dövlət qurumu bələdiyyələrlə bağlı keçirilən tədbirlər barədə hesabat verir, lakin onların ölkə həyatındakı rolunun artırılması istiqamətində hökumətdən qanun layihələri parlamentə daxil olmur. O bildirdi ki, ölkə prezidenti kiçik və orta sahibkarlığın inkişafına dəstək verir, lakin bələdiyyələr onların fəaliyyətinə mane olur:** "Bəzən sahibkar Bakı ətrafında mazutlu torpaq sahəsini icarəyə götürmək istəyir. Bütün sənədlər hazır olanda bələdiyyə sədri torpağın sonuncu auksion qiymətinə satılacağını deyir. Bələdiyyələr yerli icra hakimiyyətləri ilə birlikdə cinayət sövdələşməsinə gedib sahibkarların marağına toxunurlar. Yaxud bələdiyyə sədrləri ərazidəki sahibkarlardan abadlıq üçün tikinti materialı götürür, lakin sonra o materialların pulu verilmir. Ədliyyə Nazirliyi bu qanunsuzluqların qarşısının alınmasında xüsusi rol oynamalıdır. Çox zaman icra hakimiyyətləri bu qanunsuzluqları bələdiyyələrin əli ilə gördürür".

**Deputat Qənirə Paşayeva isə bildirdi ki, bələdiyyələrin fəaliyyəti ilə bağlı şikayətlərin sayının azalmaması təəssüf doğurur:** "Vətəndaşların bələdiyyələrdən gözləntiləri çoxdur, ona görə də bu qurumlara müraciətlər çox edilir. Odur ki, vətəndaşların müraciətlərinə daha çevik baxılması mexanizmlərini müəyyən etmək lazımdır".

**Deputat Çingiz Qənizadə isə dedi ki, məruzəni təqdim edən qurumda son illərdə aparılan işlər birdən-birə sıçrayışla özünü göstərməyə başlayıb:** "Biz bir fakta nəzər salsaq görərik ki, 2017-ci ildə inzibati nəzarət qaydasında Ədliyyə Nazirliyinə daxil olmuş 62618 bələdiyyə aktının baxılması, buna qiymət verilməsi bu orqanda nə qədər ağır iş yükünün olması deməkdir. Yəni bunlardan təxminən 60 mininə baxılıb və müsbət dəyərləndirilib. Amma yerdə qalan 740-ı ləğv edilib, 714-ü dəyişdirilib və bir neçəsi isə məhkəməyə göndərilib. 60 min ərizənin bir orqan tərəfindən yoxlanılması ciddi faktdır".

Müzakirələrdən sonra illik hesabat səsvermə ilə təsdiqləndi.

"Ələt azad iqtisadi zonası haqqında" qanun layihəsi barədə isə vitse-spiker, parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov məlumat verdi.

**Spiker Oqtay Əsədov deputatları konkret danışmağa, təkliflər verməyə çağırdı: "Dünyada 3500 azad iqtisadi zona var, ancaq onun 150-si gəlirlə işləyir. Çünki ona normal şərait yaradılmır".**

**Müzakirələr zamanı çıxış edən deputat Qüdrət Həsənquliyev iradlarını səsləndirdi:** "Biz komitə iclasında da qanun layihəsində əksini tapan və konstitusiya ilə ziddiyyət təşkil edən məqamlara iradlarımızı bildirdik. Ancaq Valeh müəllim, siz yenə eyni qaydada, dəyişiklik aparmadan qanun layihəsini bizə təqdim etdiniz". **Deputat xatırlatdı ki, parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində qanun layihəsinin müzakirəsi zamanı sədr Valeh Ələsgərov onları "vətənpərvər" adlandırıb:** "Özümü həqiqi vətənpərvər hesab edirəm. Buna görə də deməliyəm ki, bu qanunda konstitusiyamıza zidd maddələr yenə əks olunub. Az qala hər şey ölkə qanunlarından daha üstün hesab olunur. Bu məqamlar ikinci oxunuş üçün mütləq düzəldilməlidir. Azərbaycan vətəndaşlarının yerli məhkəmələrə, o cümlədən Avropa İnsan Haqları Məhkəməsinə müraciət etmək hüququ var. Bu qanunda isə belə bir imkan onlara yaradılmayıb".

V.Ələsgərov səslənən fikirlərə münasibət bildirərkən dedi ki, qanun layihəsi hazırlanarkən beynəlxalq təcrübəyə istinad olunub, ən yaxşı qanunun nümunəsi masa üzərinə qoyulub.

Bundan sonra qanun layihəsi ilk oxunuşda qəbul edildi.

"Bu yaxınlarda məlum oldu ki, Azərbaycan pasportu hörmətinə görə dünyada 70-ci yerdədir. Hər halda, dünyanın 200 ölkəsi arasında 70-ci olmaq elə də pis göstərici deyil".

**Bu fikirləri isə deputat Qüdrət Həsənquliyev söylədi. Deputatın sözlərinə görə, Azərbaycanın bu mövqedə qərarlaşmasının səbəbi var:** "Bu hörmət onunla müəyyənləşir ki, Azərbaycan vətəndaşları neçə ölkəyə vizasız gedə bilərlər. Biz Avropa Birliyi ilə əməkdaşlığı genişləndirməli, Avropa ölkələrinə vizasız gediş-gəlişə imkan verən sənədin imzalanmasına nail olmalıyıq. Qonşu Gürcüstan artıq buna nail ola bildi. Bizim hökumətimiz çalışmalıdır ki, təkcə diplomatlar deyil, Azərbaycan vətəndaşları başqa ölkələrə vizasız gedib-gələ bilsin". Q.Həsənquliyev qonşu ölkələrlə viza rejiminin aradan qaldırılmasını da təklif etdi: "İran və Türkiyə ilə də viza rejimi aradan qaldırılmalıdır".

**Deputat Aqil Abbas "Qaz təchizatı haqqında" qanuna dəyişikliklərin müzakirəsində seçicilərinin xahişini çatdırdı:** "Cənab sədr, Ağcabədidə yaşayan 10 min adamın şəxsən sizə qaz problemi ilə bağlı müraciəti var. Ağcabədidə 135 min əhali yaşayır, onun 125 mini qazla təmin olunub. Möhtərəm prezident deyib ki, ölkənin 95 faizi qazlaşdırılıb. Ağcabədidə bir Bayat kəndi var. Bu kənd Dədə Qorqudun, Rəşid Behbudovun, Natəvanın, digərlərinin kəndidir. Çox qəribədir, sağında, solunda, Ağdamın, Ağcabədinin bütün kəndlərində qaz var, amma Bayatda qaz yoxdur. Seçicilərim xahiş etdilər siz onlara kömək edəsiniz, o kənd də qazlaşdırılsın".

**Yekunda deputatlar "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanun layihəsini müzakirə etdilər. Layihə barədə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadı Rəcəbli məruzə etdi. Bildirdi ki, Azərbaycanda fiziki qüsurları olan insanların sayı 620 min nəfərdir:** "Bu isə ölkə əhalisinin 6 faizə qədərini təşkil edir". Onun dediyinə görə, dünyada əlilliyi olan şəxslərin əhali sayı ilə müqayisədə nisbəti 10-12 faiz civarındadır: "Son illər ölkəmizin əhalisinin sayı 1,5 milyon artsa da, bu kateqoriyalı insanların sayı artmayıb. Çünki əlilliyin reabilitasiyası istiqamətində addımlarla bağlıdır".

**H.Rəcəbli qeyd etdi ki, hazırkı qanun 25 il bundan əvvəl qəbul olunub:** "Biz 2008-ci ildə biz beynəlxalq konvensiyaya qoşulmuşuq və qanunvericiliyin beynəlxalq standartlara uyğun hazırlanması zəruri olub".

**Deputat Fazil Mustafa əlilliyin artımının müşahidə olunmadığı barədə H.Rəcəblinin sözlərinə reaksiya verdi:** "Halbuki nazirlik etiraf etdi ki, bürokratik manevrlərlə əlillərin sayının artmasına imkan verilmir. Bizdə çox sayda əlillərin hüquqları tanınmırdı. Amma son iki ildə bu məsələ ilə bağlı manelər aradan qalxdı". Deputat əlillərin hüquqlarının qorunması, rahatlığının təmin edilməsi üçün əlavə təkliflər də verdi. Həmçinin televiziyaların fəaliyyətini də tənqid etdi. Bildirdi ki, dövlət büdcəsindən maliyyələşən AzTV və İTV-dəki verilişlərin yayımı zamanı əlillər nəzərə alınmır.

Deputat Tahir Rzayev rayonlara əlillərin sayı ilə bağlı limit qoyulmasını düzgün saymadı.

**Deputat Elşən Musayev isə əlillərə qarşı ədalətsizlik edən məmurların ən sərt şəkildə cəzalandırılmasını təklif etdi:** "Adam var, yağının yarısı yoxdur. Deyir, məni hər 6 aydan bir çağırırlar komissiyaya. Onun ayağı təzədənmi çıxacaq? Yaxud başqa birisinin barmaqları yoxdur. Deyir, məni reabilitasiyaya göndərirlər ki, sənə əlillik düşmür. Biz əsl əlillərin hüquqlarını qorumalı və onların iş problemi ilə məşğul olmalıyıq".

**Deputat Qənirə Paşayeva dedi ki, əlillərlə bağlı ən vacib məsələlərdən biri onların təhsil almasıdır:** "Amma əlillər ümumi imtahan sistemi vasitəsilə imtahan verir və tələb olunan balı toplaya bilmir. Beləliklə, onlar pullu təhsilə düşürlər, bu vəsaiti ödəməyə çətinlik çəkirlər. Əlillərin pulsuz təhsil almaq imkanını nəzərdən keçirsək, çox yaxşı olardı". Q.Paşayeva əlillərin işlə təmin olunmasına da diqqət yetirməyə çağırdı.

**Müzakirələrdən sonra layihə ilk oxunuşda qəbul edildi.**

**❑ Elşad PAŞASOY,**
**❑ "Yeni Müsavat"**

# Dövlətdən dini mühitlə bağlı vacib addım




# İlahiyyat İnstitutunun yaradılmasının pərdəarxası - xarici faktor

## Kənar dövlətlərin din pərdəsi altında Azərbaycana müdaxiləsi hakimiyyəti hərəkətə keçirdi; İran və Səudiyyənin “dindar ixracı”nı önləmək üçün yeni təsisat yaradılır; proses Şeyximizin səlahiyyətlərini bir qədər də azaldır

**İlahiyyat İnstitutunun yaradılması haqqında ötən həftə imzalanmış sərəncam kuluarlarda Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadənin səlahiyyətlərinin daha da azaldılması kimi iddialarla müşahidə olunmaqdadır.**

Yada salaq ki, sərəncama əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə (bundan sonra Dini Komitə yazacağıq - “YM”) öz tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaratmaq, Təhsil Nazirliyinə Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsinin Azərbaycan İlahiyyat İnstitutunun strukturuna daxil edilməsini təmin etmək tapşırılıb.

Mövzuya diqqəti anlamaq çətin deyil, çünki QMİ-nin nəzdində olan Bakı İslam Universiteti 1994-cü ildən rəsmən fəaliyyət göstərir. 2009-cu ildən Təhsil Nazirliyinin lisenziyası ilə universitetdə bakalavr səviyyəsində dinşünaslıq ixtisası, magistratura səviyyəsində isə dinlərin tarixi və İslamşünaslıq ixtisaslaşmaları üzrə kadr hazırlığı aparılır.

Hacı Sabir Həsənlinin rəhbərlik etdiyi universitetdə müəllim heyətinin əksəriyyəti BİU-nun öz məzunlarıdır. Şeyxin rəhbərlik etdiyi QMİ-nin səlahiyyətlərinin azaldılması ötən ilin oktyabrında Mənəvi Dəyərlərin Təbliği Fondunun yaradılması ilə yenə gündəmə gəlmişdi. Dini Komitənin tabeliyində fəaliyyət göstərən fondun əsas məqsədi ölkədə mövcud dini konfessiyaları dəstəkləmək, mənəvi dəyərlərin qorunmasını və inkişafını, habelə bu sahəyə dövlət dəstəyinin gücləndirilməsini təmin etməkdir.

Proseslərin gedişatı göstərir ki, QMİ Azərbaycanda dini fəaliyyətləri formal olaraq idarəçilikdən uzaqlaşdırılmış durumdadır. Əvvəl böyük məscidlərin idarə edilməsi, bütün məscidlərə axund və imamların təyin olunması, dini günlərin və mərasimlərin elan olunması kimi işlər QMİ-nin əlində idi. İndi isə QMİ məscidlərə təyinatı dövlət orqanları ilə razılaşdırır, dini fəaliyyətlər, dərsliklər, ibadət ocaqları və maarifçi fəaliyyətləri həyata keçirmək kimi görəvlər DQİDK və fond vasitəsilə həyata keçirilir.

Şeyxin “vurulması” iddialarla əlbəttə ki, yeni deyil və QMİ sədri bu kimi söz-söhbətlərlə razılaşmır. Özü də bu mövzuda bir neçə dəfə üstüörtülü də olsa açıqlama verib və səlahiyyətlərinin Dini Komitə ilə bölüşdürülməsi durumundan şikayətçi olmadığına işarə edib.

Hakimiyyətin QMİ-yə münasibətinin dəyişməsinin əlbəttə ki, mühüm səbəbləri var. Əsas səbəb dövlətin dini mühitə tam nəzarəti bir əldə cəmləşdirməsidir ki, QMİ-yə bu cür “müdaxilə” mümkün olmadı. Çünki QMİ də dini mühitə tam nəzarəti həyata keçirmək gücündə deyildi. Dövlətin dəstəklədiyi Dini Komitə isə bu işi uğurla həyata keçirir. QMİ-nin səlahiyyətləri belə demək mümkünsə, daha sivil formada Dini Komitəyə transformasiya edilməkdədir.

Daha bir mühüm səbəb QMİ-nin mühafizəkar olması və dini maarifçilikdə hələ də “İran modelinə” üstünlük verməsi, dünyaya “açılım” etməməsidir. Məsələn, İslam Universitetinin illər keçsə də, nəinki Qafqazda, heç ölkəmizdə qabaqcıl təhsil ocağına çevrilməməsi buna sübut ola bilər. QMİ illərlə özü kadr yetişdirmək deyil, xaricdə dini təhsil almağa adamlar göndərirdi ki, bunun da bəzi ciddi fasadları meydana çıxdı, hətta hökumət bu təhlükələri önləmək üçün Azərbaycandan kənarda dini təhsil alanlara qadağa tətbiq etməyə məcbur oldu. İndi bu qadağa qismən aradan qaldırılsa da, aydın oldu ki, QMİ yeni dini kadrlar yetişdirmək gücündə deyil və ya bəlkə də bunu hansısa səbəbdən istəmir. Dini Komitə nəzdində yaradılmış yeni təhsil ocağının təsis edilməsinin əsas səbəblərindən biri budur.

Azərbaycanda dini mühitə Səudiyyə Ərəbistanından da ciddi müdaxilələr var. Son illər radikal dini qrupların Bakı və bölgələrdə güclənməsi, təşkilatlanması prosesi gözardı edilməməlidir. Həmçinin, Türkiyədəki nurçuluq cərəyanı da ölkəmizdə ciddi təşkilatlana bildi. Hazırda bu iki cərəyanın fəsadlarını aradan qaldırmaq üçün dövlətin ayrı-ayrı strukturları ciddi fəaliyyət göstərsə də təhlükə tam olaraq aradan qalxmayıb.

Aydındır ki, mediada bu məsələ çox ilgi çəksə də hökumət QMİ sədrini incik salmaq istəmir və Şeyxlə münasibətlərdə nə vaxtsa hər hansı gərginliyin olacağı ağlabatan deyil. Sirr deyil ki, QMİ sədrinin də ciddi rəqibləri var və onlar son illərdə Şeyxi sıxışdırıb mövqelərini zəiflətməyə çalışırlar. Şeyxin tutduğu posta görə hakimiyyət daxilində aşkar rəqiblərinin olduğunu iddiaa etmək olmaz. Çünki Qafqaz Müsəlmanları İdarəsi bir QHT-dir və nə hökumətdə, nə dövlət postlarında təmsilçiliyi yoxdur. Amma Şeyx özü 30 ilə yaxındır ki, Azərbaycanın ictimai-siyasi həyatında mühüm bir fiqurdur *(1990-cı ilin yanvar hadisələrindən sonra onun fəallığını yəqin çoxları hələ də unutmayıb - “YM”.)* Bu illər ərzində o, “din dövlətdən ayrıdır” desə də, siyasətə qarışıb, birmənalı olaraq, həm mərhum prezident Heydər Əliyevin, həm də prezident İlham Əliyevin siyasi kursunu dəstəkləyib. Şeyxin Azərbaycan hakimiyyəti yanında həmişə xüsusi çəkisi olub və məhz bu etimadın sayəsində özünü Qafqazın əbədi şeyxi də edə bilib. Səlahiyyətləri azaldılsa da, məhz hakimiyyətin birinci şəxsinin qoruması altında olan Şeyxin tam meydandan çıxarılması mümkünsüz iş kimi görünür.

Şeyxülislamın dövlət ərkanında səlahiyyətləri qalmaqdadır və ona xüsusi status tanınıb. Bundan başqa, Şeyxülislamın postsovet məkanında dini çevrələrə kifayət qədər təsir imkanları var. Belə görünür ki, Şeyx də yaranmış durumun fərqindədir və səlahiyyətlərinin azaldılmasına müqavimət göstərmir. Təki ona toxunmasınlar...

❑ **“YM”**

# Müxalifətin ən böyük yanlışı-20 il əvvəlki boykot...

## Qabil Hüseynli: “Bu, müxalifətin indiyə qədər buraxdığı ən böyük səhvdir”

**Ölkə müxalifətinin böyük kəsiminin aprelin 11-də keçiriləcək prezident seçkisi ilə bağlı boykot qərarı müzakirə edilir. Sosial şəbəkələr və mətbuatda bununla bağlı ən müxtəlif fikirlər var.**

Daha çox müxalifətin bu qərarı tənqid olunur. Eyni zamanda keçmişə istinadlar da var. Belə səhv qərarların kökünün 20 il öncəyə getdiyi bildirilir. 1998-ci ilin prezident seçkisini də hazırkı müxalifət boykot etmişdi. Özü də o zaman demokratik düşərgə tarixinin ən güclü vaxtlarını yaşayırdı, hakimiyyətin bir addımlığına qədər yaxınlaşmışdı. Həmin vaxt mərhum prezident Əbülfəz Elçibəy Kələkidən təzə qayıtmış, prezidentliyə əsas iddiaçı idi. Lakin indiki müxalif liderlər arasındakı fikir ayrılığı, onların Elçibəyi vahid namizəd kimi qəbul etməmələri sonunda boykot qərarına səbəb olmuşdu. Təsadüfi deyil ki, o seçkidə həmin vaxt reputasiyası elə də müsbət olmayan AMİP lideri Etibar Məmmədov qatılmış və kifayət qədər ciddi səs toplaya bilmişdi.

Müxalifətin hər 10 ildən bir belə ciddi səhvlər buraxdığı da müzakirə edilir. Təsadüfi deyil ki, sonu 8 rəqəmi ilə bitən illərin prezident seçkilərində müxalifətin böyük kəsimi iştirak etməyib, 1998, 2008 və bu il...

**Sabiq dövlət müşaviri Qabil Hüseynli müxalifətinin çöküşünün əslində 20 il öncə qəbul edilən məlum boykot qərarından sonra başlandığını bildirdi:** “1998-ci ildə mən Türkiyədə mühacirətdə idim. Amma prosesləri yaxından izləyirdim. Doğrudur, o vaxt müxalifətin kifayət qədər güclü vaxtı idi, proseslərə kifayət qədər təsir edə bilirdi. O zaman müxalifətə inam da kifayət qədər yüksək idi. Lakin qəbul edilən yanlış qərar müxalifətin bu gücünü getdikcə əlindən aldı. Bu düşərgənin ən böyük səhvi inteqrasiya prosesinə uzun müddət getməkdə tərəddüd etməsi oldu. Həmin dövrdə öndə olan güclü siyasi qüvvələr bir mərkəz ətrafında birləşə bilmədilər. Eyni zamanda vahid namizəd də müəyyənləşdirə bilmədilər. 1998-ci ildə seçkini boykot etməyin mənasını bu günə qədər də başa düşmək mümkün deyil. Bu qərar müxalifətin cəmiyyətdə oynaya biləcəyi avanqard roluna ciddi kölgə saldı. İnsanların böyük bir qismi müxalifətə olan inamını getdikcə itirməyə başladı. Siyasi mübarizə üçün o illər ən əlverişli illər idi. Doğrudur, qarşı tərəfdə Heydər Əliyev kimi güclü rəqib var idi. O zamankı hakimiyyət də kifayət qədər güclü idi, xalq arasında populyardır. Ona qalib gəlməyin yeganə yolu müxalifətin seçkilərə vahid namizədlə getməsi olardı. Amma bu düşərgə bu şansı əldən buraxdı. Həmin dövrdə Əbülfəz Elçibəyin Kələkidən Bakıya gəlib aktiv siyasətə başlaması siyasi proseslərə stimul verirdi. Düşünürəm ki, müxalifətin ən yaralı yeri olan liderlər arasındakı çəkişmələrin, anlaşılmazlıqların bünövrəsi məhz o zaman qoyuldu. Elçibəy öz xarizması, ağsaqqallıq nümunəsi ilə cəmiyyətdə populyar olsa da, onun təkrar prezidentlik kürsüsünə iddia etməsi həmin dövrdə SİDSUH və digər bu kimi müxalif birləşmələrin daxilində liderlər arasında yaranan narazılıqda az rol oynamadı. Elçibəy hamıdan ona güzəştə getməsini və onun vahid namizədliyini müdafiə etməsini istəsə də, bu heç də çoxları tərəfindən müdafiə edilmirdi. Belə olan təqdirdə SİDSUH daxilində Müsavat başda olmaqla, digər qurumlar boykot qərarını ortaya atdılar. Uzun müzakirələrdən sonra müxalif qurumların böyük əksəriyyəti bu qərarı müdafiə etdilər. Beləliklə, müxalifət ən güclü vaxtında vahid namizəd müəyyən edə və seçkidə iştirak edə bilmədi. 1998-ci il seçkisinin verə biləcəyi müsbət nəticələrdən müxalifət özü-özünü məhrum etdi. Siyasilərin sağlam olmayan ambisiyalarından qaynaqlanan boykot qərarı sonradan bu düşərgənin içərisində xoş olmayan meyllərin yaranıb inkişaf etməsinə və daim müxalifəti silkələməsinə zəmin yaratdı. 1998 qərarı müxalifətin xalqla olan müəyyən əlaqələrinin aradan qalxmasına və xalqın bu düşərgəyə olan etimadının sıradan çıxmasına səbəb oldu.



Doğrudur, 2003-cü ildə müxalifət Müsavatın timsalında gücünü bərpa edə bildi, seçkiyə qatıldı, ciddi proses apardı. Lakin 1998-ci il seçkisi müxalifət üçün daha yaxşı perspektivlər vəd edirdi. Bu səhv müxalifətin indiyə qədər buraxdığı ən böyük səhvdir. 2003-cü ildə nələrsə etməyə çalışan müxalifət bundan beş il öncəki gücünü nümayiş etdirə bilmədi. Düzdür, Müsavat 2003-cü ildə ”Bizim Azərbaycan" blokunun timsalında güclü bir müxalif alyans yaratdı, müxalifətin imicini bir qədər bərpa etdi. Lakin bu seçkidə qalib gələ bilmədikdən sonra sözün həqiqi mənasında bu düşərgə bitdi. Düzdür, 2003-cü ildəki seçkilərdə hazırkı prezident İlham Əliyev kimi güclü siyasətçi, rəqib var idi. Düşünürəm ki, müxalifətin qalibiyyətinin önünü ən çox bu amil kəsdi. 2008-ci ildə də eyni səhvi təkrar etdilər. Düzdür, bu il də iqtidar komandası daha güclü idi. Lakin istənilən halda seçkidə iştirak vacib idi. Bu il də artıq bu düşərgə növbəti səhvini təkrarlayır. Artıq verilən boykot qərarlarının doğru olmadığını düşünürəm. Bir neçə ildən sonra da bu qərarları səhv olduğu müzakirələr sırasında olacaq".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 35 (6924) 14 fevral 2018

# ABŞ-ın Azərbaycandakı ən böyük təşkilatında maliyyə müəmması

## ABŞ səfiri USAİD-in Azərbaycana maliyyə yardımını azaltması haqda dəqiq fikir bildirmir, amma...

**ABŞ-ın Azərbaycandakı səfiri Robert Sekuta ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) 2018-ci ildə Azərbaycana maliyyə yardımının azaltması ilə bağlı məsələyə münasibət bildirib.**

"Report"un xəbərinə görə, Kürdəmir rayonuna səfər edən səfir jurnalistlərə bildirib ki, yardımın dəqiq məbləği hələlik müəyyən edilməyib: "ABŞ qanunvericiliyinə görə, xarici yardımları hakimiyyətin iki qolu - icraedici və qanunverici hakimiyyət müəyyən edir. Yekun məbləğin təsdiq olunmasında hakimiyyətin hər iki qolu iştirak edir. Yardımın məbləği hələlik müəyyən olunmayıb. Konqresdə yardımın məbləğinin müəyyən edilməsi ilə bağlı müzakirələr davam edir. Əsas bir məsələni diqqətinizə çatdırım ki, ABŞ 1992-ci ildən Azərbaycana yardım edir. Məcburi köçkünlərə və müharibədən əziyyət çəkənlərə 100 000 000, Azərbaycan dövlətinin inkişafına isə 1.3 milyard dollardan çox yardım göstərib".

Yada salaq ki, ABŞ prezidenti Donald Tramp Dövlət Departamentinin xətti ilə bir sıra inkişaf etməkdə olan ölkələrə maliyyə yardımını azaltmaq və ya tamamilə ləğv etmək barədə seçkiqabağı vəd vermişdi. Ötən ilin mayında isə ABŞ Dövlət Departamentinin 15 səhifəlik büdcə sənədinə artıq bu barədə xüsusi bənd salınmışdı. Sənəd layihəsinə görə, Azərbaycan, Qazaxıstan, Türkmənistan, Belarus kimi ölkələrə Dövlət Departamenti xətti ilə maliyyə yardımı ləğv ediləcək.

Sənəddə bu kimi layihələrin əsas icraçısı olan ABŞ Beynəlxalq İnkişaf Agentliyinin(USAİD) büdcəsinin 12 milyard dollar (31 faiz) kəsilməsi nəzərdə tutulub.

O vaxt Rusiya mediası Amerika diplomatik dairələrinə istinadən xəbər vermişdi ki, USAİD Azərbaycanda fəaliyyətini dayandırır. O cümlədən Belarus, Tacikistan və Qırğızıstanda da təşkilatın bağlanacağı gözlənilir.

Qeyd edək ki, USAİD-ə bəzi ölkələrdə münasibət heç də birmənalı deyil. Rusiya 1992-ci ildən fəaliyyət göstərən təşkilatın fəaliyyətini 2012-ci ilin sentyabrında dayandırıb. Rusiya XİN bəyan edib ki, USAİD-in bu ölkədə fəaliyyəti təşkilatın məramına uyğun olmayıb, ayrılan qrantlar "siyasi fəaliyyətə" yönləndirilib. Azərbaycanda da zaman-zaman xüsusilə seçkilər ərəfəsində daha çox hakimiyyətə yaxın mediada USAİD-in ayırdığı qrantların müxalifətçilərə yönləndirildiyi, hətta "inqilablar" hazırladığı barədə iddialar səslənib.

ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) - ABŞ hökumətinin xarici yardım üzrə agentliyidir. 1961-ci ilin 3 noyabrında prezident Con Kennedi USAİD-in təsisi haqqında sənəd imzalayıb.

Agentlik uzunmüddətli iqtisadi inkişafa nail olmaq istiqamətində fəaliyyətləri dəstəkləyir və dünyanın müxtəlif regionlarında yardım proqramları həyata keçirir. USAİD tərəfindən həyata keçirilən proqramlar kənd təsərrüfatı və ticarət, qlobal səhiyyə, demokratiya və humanitar sahələrin inkişafına kömək etmək məqsədi daşıyır.

❑ **"YM"**

**Fevralın 13-də Vergilər Nazirliyi Bakıda "Vergilər, şəffaflıq, inkişaf" mövzusunda sahibkarların, deputatların və digərlərinin iştirakı ilə konfrans keçirib. Konfrans Mikayıl Cabbarovun nazir təyin edilməsindən və Vergilər Nazirliyində aparılmış kütləvi kadr dəyişikliklərindən sonra yeni vergi siyasətinin müəyyənləşdirilməsi, vergiyığma sahəsində şəffaflığın artırılması yolları barədə müzakirələr aparmaq məqsədi daşıyıb. ("APA-Economics")**



# "Korrupsiyanın kökünü kəsəcəyik, heç kimə güzəşt edilməyəcək"

## Vergilər naziri Mikayıl Cabbarov: "Nə qədər ki, gec deyil, bu işi dayandırın"

**Vergilər naziri çıxışı zamanı bildirib ki, həyata keçirilməsinə başlanılmış islahatlar şəffaf vergi sisteminin qurulmasına, cəlbedici vergi mühitinin formalaşdırılmasına, inzibatçılığın keyfiyyətcə yüksək səviyyəyə qaldırılmasına xidmət edəcək:** "Vergilər Nazirliyi öz işini elə qurmalıdır ki, ölkədəki iqtisadi artımı təmin edə bilsin. Vergi yığımı ölkə iqtisadiyyatının vəziyyətindən birbaşa asılıdır. Yəni ölkə iqtisadiyyatı nə qədər güclüdürsə, o qədər də Vergilər Nazirliyi üçün fiskal funksiyanın yerinə yetirilməsi asanlaşır. Və yaxud əksinə, iqtisadi böhran, durğunluq şəraitində Vergilər Nazirliyinin dövlət büdcəsinə daxilolmalarının təmin edilməsi imkanları xeyli mürəkkəbləşir. Bu səbəbdən bu sahəyə birbaşa cavabdeh olan digər dövlət qurumları ilə birlikdə işləyərək Vergilər Nazirliyinin əli iqtisadiyyatın nəbzi üzərində olacaq".

**Nazir bildirib ki, vergi yoxlamalarının keyfiyyəti artmalıdır:** "Vergi yoxlamalarının sayını azaltmalıyıq və azaldacağıq, biznes yoxlamaları azaldılacaq. Yoxlamalar və sanksiyaların tətbiqi məqsəd deyil. Lakin qanunu pozana qarşı sanksiyaların tətbiq olunması birmənalıdır. Qanun hamı üçün birdir. Kiçik və böyük şirkət olmasından asılı olmayaraq hər kəs vergi qanunlarına əməl etməlidir".

**O, Vergilər Nazirliyinin fəaliyyətində mənfi məqamların olduğunu dilə gətirib:** "Mənfi səhifələrə gəldikdə, bir çox vergi ödəyiciləri öz təsərrüfat fəaliyyətinin nəticələrinin hesablanmasının gəlir və xərclər üzərində aparılması ilə deyil, bəzi hallarda ən asan üsulla - dövriyyənin hesablanmasına sövq edilməsi, bunun nəticəsində audit institutunun əhəmiyyətli dərəcədə itirilməsi, plan və proqnozun yerinə yetirilməsi naminə vergi ödəyicilərindən ödənilməli olan vergi məbləğindən artıq ödəmələrin tələb edilməsi, bu ödəmələrin həcminin ilbəil artması, neft və qeyri-neft sektorlarında vergi yükünün qeyri-mütənasib paylanılması özəl biznesə qarşı bugünkü tələblərə cavab verməyən metodların olduğunu göstərir və işgüzar aktivliyin rəsmi sahədən qeyri-rəsmi sahəyə keçidi ilə nəticələnir. Belə təcrübənin yolverilməzliyi xüsusən kiçik və orta sahibkarlıq sahəsində özünü büruzə verir".

**M.Cabbarov qeyd edib ki, vergi sistemində kadrların yenidən komplektləşdirilməsinə başlanılıb.**

"Vergi orqanlarında korrupsiyanın tam kökünün kəsilməsi



üçün bütün resursları səfərbər edəcəyik. Öz sıralarımızın təmizlənməsinə artıq başlanılıb, bu proses davam edəcək, aşkar olunan bütün hallarla bağlı qəti tədbirlər görüləcək, bu mənada heç kəsə güzəşt edilməyəcək. Himayədarlıq faktları xüsusi nəzarətə götürüləcək, buna hələ də yol verənlər bilməlidir ki, vergi ödəyicilərinin məsuliyyətə cəlb edilməsi müddətinin keçməsi vergi işçilərinin cinayət hərəkətlərinə şamil edilmir", deyə nazir vurğulayıb.

**Nazir əlavə edib ki, vergi orqanlarının səlahiyyət və məsuliyyət dairəsi yenidən müəyyənləşdiriləcək:** "Əsaslandırılmamış maliyyə sanksiyalarına yol verməmək üçün bütün mübahisəli hallar mütləq qaydada vergi ödəyicisinin iştirakı ilə araşdırılacaq. Apelyasiya Şurasının fəaliyyəti aktivləşdiriləcək, vergi administrasiyası açıq və şəffaf çalışacaq".

**Nazir çıxışında əhaliyə müraciət də edib:**

"Marketlərdə kassa qəbzinin tələb edilməsi ayıb hesab edilməməlidir. Yəqin ki, evinizin altında olan dükanın satıcısı qonşunuzdur. Ondan aldığınız çörəyə görə "çek" istəsəz, onun xətrinə dəyə bilərsiz. Amma fikirləşsəz ki, vergi nəyə xərclənir, onda tələb edərsiz. Vergi torpaqların qorunmasına, məktəblərin tikilməsinə, hər iki valideynlərini itirən gənclərin təhsilinə xərclənir. Belə bir məsəl var: nəyisə dəyişmək istəyirsənsə, ilk növbədə özündən başla. Biz də ilk olaraq vergi orqanlarındakı problemlərin həllinə, şəffaf vergi sisteminin təkmilləşdirilməsinə davam edəcəyik.

Peşəkar mühasiblər barədə ayrıca danışmaq istəyirəm. Bulanıq su o şəxslərə lazımdır ki, qanunsuz yolla pul qazanmaq istəyir. Vergi hesabatı dolduran mühasib səhv edə bilər, amma saxta məlumat daxil edən mühasib bilməlidir ki, illər keçsə də, o işlərə görə məsul şəxs odur. Nə qədər ki, gec deyil, bu işi dayandırın. Yoxsa biz bu işi dayandırmaq üçün fəaliyyətə başlayacağıq".

**Konfransda çıxış edən deputat Ziyad Səmədzadə deyib ki, o, dünyada iki şeyə çarə olmadığına bir daha əmin olub: vergiyə və ölümə.**

**Deputatın sözlərinə görə, son 15 ildə büdcə proqnozlarının yerinə yetirilməməsi faktı yoxdur:** "Vergi yükünü yox, vergi ödəyicilərinin sayını artırmaq lazımdır. Azərbaycanda əhalinin 35-36%-i kənd təsərrüfatı sahəsində çalışır. Bu də bu sahəni vergidən azad etmişik. Onların vergiyə cəlb edilməsi sahəsində müəyyən addımlar atmalıyıq".

**Deputat Vahid Əhmədov** isə bildirib ki, yeni vergilər nazirinin qarşısında çox böyük vəzifələr durur. O, yeni Vergi Məcəlləsinin qəbul edilməsinə çağırıb. Vahid Əhmədov xatırladıb ki, yoxlamalar prezident tərəfindən dayandırılsa da, Vergilər Nazirliyinə yoxlama icazəsi verilib. Və yoxlama zamanı elə etmək lazımdır ki sahibkarların nüfuzuna xələl gətirilməsin.

**Deputat bildirib ki, hər il Dövlət Neft Fonduna transfertləri nəzərə almasaq, Vergilər Nazirliyi xətti ilə büdcəyə 6,5-7 milyard manat həcmində vəsait daxil olur.** "Bu vəsait kifayət qədər böyükdür və bu vəsaitin yığılmasında çətinlik yaranır. Təklif edirəm ki, İqtisadiyyat və Vergilər Nazirliyi proqnozlar verəndə bunu razılaşdırsınlar ki, proqnozlar həqiqətəuyğun olsun. Proqnoz məsələsində ciddi olsunlar. Hesab edirəm ki, Vergilər Nazirliyi bu kimi yükün altına tək girməməlidir. Götürüb Vergilər Nazirliyinin adına 7 milyard yazmaqla deyil ki. Mən burda hər şeyi açıqlamaq istəmirəm" - deyə, deputat bildirib.

❑ **"Yeni Müsavat"ın Xəbər Xidməti**

# İranın İrəvan səfiri erməniləri pərt elədi - "Qarabağ münaqişəsi bitməyincə..."

## Tehrandan İrəvana imtina kimi şərt; diplomatdan düşmənə iynəli mesajlar; ortaq layihələr üçün böyük sərmayələri işğalçı ölkə heç vaxt tapa bilməyəcək, əgər...; yerli siyasilər səfiri haqlı çıxardı: "Ermənistan sanki bölgədə yoxdur"

**"Biz Ermənistan Respublikasına sərfəli qiymətə qaz sata bilərik. Bu məsələ müzakirə edilir və mən ümid edirəm ki, biz bu yöndə irəliləyişi görə biləcəyik". "Yeni Müsavat" novostink.ru erməni saytına istinadən xəbər verir ki, bu sözləri İran İslam Respublikasının Ermənistandakı səfiri Seyid Kazem Sacadi dünən İrəvanda bəyan edib. Onun sözlərinə görə, əgər Ermənistan energetika sferasında daha aktiv olsa, buna adekvat addımlar atılacaq ki, bu da "qonşu ölkədə yeni iş yerlərinin açılmasına gətirəcək".**

Diplomat daha sonra tərəflər arasında ortaq nəqliyyat layihəsinin mümkünlüyü haqda danışıb. "İran tərəfi onu Ermənistanla birləşdirən dəmir yolunun açılışına hazırdır. Ancaq bir şərtimiz var". Səfir ardınca şərtin nədən ibarət olduğunu belə açıqlayıb: "İran-Ermənistan münasibətləri çox yaxşıdır. Əgər İrəvan investor tapsa, biz dəmir yolunu işə sala bilərik. Sadəcə, bu sahəyə birgə sərmayələr qoyulmalıdır. İlk addımı siz atın, növbətisini biz atarıq".

*****

Əvvəla, təbii qazla bağlı: o, nə sərfəli qiymətdir ki, - hansı məsələ ətrafında müzakirə getdiyini bildirir, - bu haqda diplomat heç deməyib. Məsələ ondadır ki, İran 2013-cü ildən İrəvana "sərfəli qiymət" təklif edir, Ermənistan isə bu müddətdə "Qazprom"la yeni müqavilə bağlamağa üstünlük verib. Əlbəttə ki, ermənilər daha ucuz qazı İrandan almaq istəyərdilər, di gəl, Rusiya amili maneədir.

Dəmir yoluna gəlincə, əslində İran öz səfirinin dili ilə,



diplomatik tərzdə Ermənistanı öz başından edib. Çünki İrəvan şübhəsiz ki, Tehranın investor tapmaqla bağlı tam məntiqli tələbini yerinə yetirmək iqtidarında deyil. Tapsaydı, bunu illər öncə edər, birgə layihə işə düşərdi. Dövlətlərarası infrastrukturu sırf öz pulu hesabına inşa eləmək isə ümumiyyətlə, işğalçı ölkənin imkanları xaricindədir. Səbəb məlum: həlli uzanan Dağlıq Qarabağ ixtilafı, sərhədlərin bağlı olması, blokada rejimi, müharibə şəraiti. Belə rejimdə Ermənistan xarici sərmayə üçün olduqca qeyri-cəlbedicidir təbii ki. Bunu Ermənistanın özündə də açıq şəkildə etiraf edirlər.

*****

"Sanki biz bölgədə yoxuq. Ermənistan de-yure Qafqazdadır. Ancaq o, buradan keçən heç bir layihədə yoxdur. Biz iqtisadi anlamda dalandayıq, bu səbəbdən heç kəs Ermənistana pul qoymur. Əgər əvvəllər ildə 3-4 milyard dollar investisiya alırdıqsa, ötən il bu rəqəm cəmi 120 milyon dollar olub. Bu, heç nədir. Situasiyanı həm də korrupsiya daha da qəlizləşdirir. Bu vəziyyətdə heç bir normal adam öz pulunu Ermənistana qoymağa risk eləməz".

"Yeni Müsavat"ın məlumatına görə, bu sözləri sabiq prezident Levon Ter-Petrosyanın rəhbəri olduğu müxalif "Ermənistan **Milli Konqresi" partiyası sədrinin müavini Aram Manukyan** "Vestnik Kavkaza" nəşrinə işğalçı ölkənin hazırkı durumunu şərh edərkən deyib.

**Partiya yetkinlisi yaranmış vəziyyəti haqlı olaraq həll olunmamış Dağlıq Qarabağ probleminə bağlayıb:** "Bəli, bu belədir. Müharibə ölkəni heç cür inkişaf etməyə qoymur. Axı iqtisadi inkişafdan ötrü sakitlik, stabil daxili siyasi və xarici siyasi vəziyyət lazımdır. Bizdə isə konflikt ucbatından belə bir şey yoxdur. Yarımmüharibə, yarımsülh - pul yatırmaq üçün məqbul mühit deyil. Ermənistan üçün ən böyük təhdid - həll olunmamış Dağlıq Qarabağ problemidir. Bu problemi həll eləmək lazımdır. Keçən il, parlament seçkilərinə gedərkən də onun həllini biz öz siyasi proqramımızda 1 nömrəli məsələ kimi qoymuşduq. Yalnız bizim partiya konfliktin nizamlanmasına dair proqramla çıxış eləmişdi. Biz başa düşürük ki, müharibənin bitməsi Ermənistanın inkişafı və inteqrasiyası üçün yeganə yoldur".

*****

"Səfirin bu bəyanatlarının əlbəttə ki, əlavə izaha ehtiyacı var. Ki, erməni ictimaiyyəti anlasın ki, yekun etibarilə Ermənistan-İran əlaqələrinin dərinləşməsinə konkret hansı əngəllər mövcuddur. Bu, Rusiya tərəfidir, yoxsa problem həqiqətən həm Arazın bu, həm də o tayı ilə bağlıdır?"

**"Yeni Müsavat"ın məlumatına görə, bunu isə erməni siyasi şərhçi Aram Amatuni 1 in.am nəşrindəki məqaləsində yazıb. Müəllifin qənaətinə görə, iranlı diplomatın açıqlaması iki reallıq fonunda xüsusilə diqqətçəkəndir:** "Bunlar daxili və xarici reallıqlardır. Əvvəla, İran, deyəsən, qəlizləşən Suriya böhranı dalğasında bilmək istəyir ki, Ermənistan kimin yanındadır. İkincisi isə bu bəyanat şübhəsiz ki, Ermənistanda 2018-ci ilin aprelində gözlənilən siyasi final açılış fonunda maraq doğurur *(parlamentli üsul-idarəyə keçid, yeni baş nazir və prezidentin seçkiləri nəzərdə tutulur - red.)*. Tehran əlbəttə ki, bu məsələyə də laqeyd deyil və hər şeydən göründüyü kimi, bu yöndə reaksiyanı yoxlamaq istəyir".

*****

Əlbəttə ki, əsas səbəbi dağda-daşda axtarmağa ehtiyac yoxdur. İran səfiri aydın şəkildə rəsmi İrəvana, erməni toplumuna mesaj verib ki, konkret olaraq Qarabağ ixtilafı yoluna qoyulmayınca, Ermənistan müharibə və blokada vəziyyətindən çıxmayınca, onunla ortaq layihələr sırf arzu, yuxu olaraq qalacaq. Həm də Ermənistanın öz içindəki Rusiya amilinə görə...

**❑ "Yeni Müsavat"ın analitik xidməti**

# ABŞ Saakaşvilini yarıyolda qoydu-Mişanın taleyi necə olacaq?

## Elxan Şahinoğlu: "Saakaşvili uzaqbaşı Qərbin məşhur universitetlərinin birində dərs deyə bilər"

**Ötən ilin sentyabrından etibarən Ukraynanı daxildən qarışdıran Gürcüstanın sabiq prezidenti, Odessa vilayətinin sabiq qubernatoru Mixail Saakaşvili ilə bağlı rəsmi Kiyevin fevralın 12-də verdiyi qərar dünya gündəmini zəbt edib. Bu qərarla Mişa Polşaya readmissiya edilib.**

Məlumat üçün bildirək ki, readmissiya hər hansı bir dövlətin ərazisində qanunsuz olan əcnəbinin öz mənşə ölkəsinə və ya tranzit ölkə kimi istifadə etdiyi ölkəyə qaytarılması deməkdir.

Ukrayna Sərhəd Xidməti Saakaşvilinin Ukraynadan göndərilməsi xəbərini təsdiqləyib. Daha sonra isə Saakaşvilinin Polşaya gəldiyi haqda xəbər verilib.

Saakaşvilinin vəkili Ruslan Çernolutski bildirib ki, Polşa siyasətçinin geri qaytarılmasına razılıq verməyib.

Saakaşvilinin özü isə ölkədən çıxarılmasını Ukrayna hakimiyyət orqanları tərəfindən "hədsiz zəiflik və hədsiz qorxaqlığın təzahürü" adlandırıb.

"Saxladıqdan sonra məni avtobusa, sonra aparıb vertolyota mindirdilər. Vertolyot, başa düşdüyüm qədərilə bir müddət Kiyev üzərində dövr etdi. Borispolda eniş etdikdən sonra əllərimi kobud güc tətbiq etməklə burdular və təyyarəyə mindirdilər", Saakaşvili bildirib.

Mişa barədə bu qərardan sonra onun ətrafında gedən müzakirələr daha da artıb. Amerikanın onun vasitəsilə Ukraynada istədiklərini həyata keçirə bilmədiyinə görə onun arxasından qaçdığı bildirilir. Readmissiya qərarından sonra Birləşmiş Ştatların susqun mövqe sərgiləməsi bir sıra suallara yol açıb.

**Qərb Universitetinin Tətbiqi Politologiya Mərkəzinin rəhbəri Elxan Şahinoğlu Saakaşvili barəsində əvvəlcədən daha çox deportasiya qərarının gözlənildiyini bildirdi:** "Saakaşvilinin deportasiyasını gözləyirdim. Çünki Ukrayna hakimiyyətinin Saakaşvilin Ukrayna vətəndaşlığından məhrum qə-



rarı var idi, üstəgəl də Odessanın keçmiş qubernatorunun pasportu da artıq qüvvədən düşmüşdü. Digər tərəfdən, Saakaşvili Ukraynada prezident Petro Poroşenkoya ciddi başağrısı yaradırdı, insanları mitinqlərə və küçə yürüşlərinə sürükləyirdi. Demək, Poroşenko nə yollasa Saakaşvilidən qurtulmalı idi. Sadəcə, Poroşenko iki qərar üzərində düşünürdü. Birinci qərara görə Poroşenko Saakaşvilini Gürcüstana, ikinci qərara görə isə Avropaya deportasiya etməli idi. Saakaşvilini Gürcüstana deportasiya etsəydilər, onu Tiflisin hava limanından birbaşa həbsxanaya yollayacaqdılar. Poroşenko bu varianta üstünlük verməkdən çəkindi, çünki bu halda Avropa ilə münasibətlərdə müəyyən gərginlik yaşaya bilərdi. Poroşenko Avropa İttifaqının maliyyə dəstəyindən asılıdır. Ona görə də daha yumşaq ikinci varianta üstünlük verildi - onu gəldiyi yerə, yeni Polşaya göndərdi. Niyə Polşa? Çünki Saakaşvili ötən ilin sonunda Ukrayna sərhədini məhz Polşa üzərindən keçmişdi. Tarixin ironiyasına baxın ki, Ukraynanın erməni daxili işlər naziri Arsen Avakov gürcü eks-prezidenti ölkədən qovdu. Bu, Ukraynanın hansı ağır vəziyyətdə olduğunu göstərir. Məlumat üçün bir xəbər verim. Rəhbəri olduğum mərkəzin Ukrayna üzrə eksperti Ağa Zeynalov Saakaşvilinin Polşaya deportasiyasını Kiyevin Borispol Hava Limanından izləyə bilib. Onun mənə verdiyi məlumata görə, hava limanında qarmaqarışıqlıq olub, təhlükəsizlik orqanının maşınını aşırdıblar. Buna baxmayaraq, Saakaşviliyə görə Kiyevdə güclü dəstək aksiyalarının keçiriləcəyini də proqnozlaşdırmıram".

**Politoloq sabiq qubernatorun Ukraynada nüfuzunun aşağı olmasından da söz açdı:** "Etiraf etmək lazımdır ki, Saakaşvili nə qədər fəal olsa da, onun Ukraynadakı reytinqi o qədər də yüksək deyildi. Bəli, o, güclü siyasətçidir, əsl mübarizdir, başı ilə divarı yarmağa hazırdır. Ancaq bütün bunlar da bir yerə qədər. Ukrayna hakimiyyəti onu məcburi Polşaya deportasiya etdikdən sonra sərhədi elə qapadacaq ki, keçmiş səhvini təkrarlamasın və Gürcüstanın keçmiş prezidenti bir daha Ukraynaya ayaq basa bilməsin. Əlbəttə, Saakaşvili yenə cəhd edəcək, ancaq çətin olacaq. Gürcüstan və Ukrayna Saakaşvilinin üzünə xeyli müddət qapalı olacaq. Demək, Saakaşvilinin siyasi karyerası da yaxın illər üçün eniş dövrünü yaşayacaq. Gərək Gürcüstanda və Ukraynada onun tərəfdarları qələbə çalsın ki, o, ya Tiflisə, ya da Kiyevə qayıda bilsin. Bunun da perspektivi hələ ki qaranlıqdır. Qərbə və Polşaya siyasətçi Saakaşvili lazım deyil, uzaqbaşı Qərbin məşhur universitetlərinin birində dərs deyə bilər. Doğrusu, onsuz maraqsız olacaq. Ancaq Tiflis və Kiyevə belə "maraqlı" siyasətçi lazım deyil, heç Qərbə də lazım deyilmiş, yoxsa əlləri qandallı Polşaya deportasiya belə asanlıqla baş tutmazdı. Amerika açıq-aşkar onun arxasında dayanmadı. Saakaşvilinin əsas dəstəkçisi Amerikanın keçmiş prezidenti Corc Buş idi. Sonrakı prezident Barak Obama Buşdan daha az Saakaşvilini müdafiə edirdi. Donald Tramp isə ümumiyyətlə, Saakaşviliyə maraq göstərmir. Bu, Ukrayna prezidentinin işinə yaradı".

**❑ Cavanşir ABBASLI**



# Müasir Romeo və Cülyettanın videosu

Samir SARI

**Bildiyiniz kimi, bu gün fevralın 14-dür və müqəddəs Valentin günüdür.**

Bu günün nə günü olduğunu da bilirsiniz, xatırlatmağa ehtiyac yoxdur. Azı 20 ildir ki, qədirbilən xalqımız bu günü başqa günlərdən daha isti şəkildə qeyd edir. Anlaşılandır, hərənin özünə görə sevgilisi var və bu günlərdə sevgili yarı təbrik etmək labüddür, vacibdir.

Kənd yerində bilmirəm, şəhər yerində 14 fevral günü həyat yoldaşlarını, nişanlılarını təbrik edənlər çox olur.

Bu günün sırf xristian dünyası üçün əlamətdar olduğunu qeyd etməyə də ehtiyac yoxdur. O tarixdə qalıb. Bəlkə də keşiş Valentinin gerçəkdən düz-əməlli biri olmayıb, öz dövrünün LGBT fəalı olub, bilmirəm. Bu, əslində artıq maraqlı da deyil. Əsas odur ki, adam öz canı bahasına bəşəriyyətə, sevən cütlüklərə belə bir əziz gün, eləcə də biznes dünyasına misilsiz bazar bəxş edib.

Əsas məsələ hazırda budur. Bütün dinlər yığışıb 14 fevralı haram buyursalar da, parfümerlər, çiçəkçilər, qızıl-zinət əşyaları istehsal edənlər, 14 fevral aksessuarı, suveniri qayıranlar da toplaşıb onları qanundankənar elan edərlər.

Başqa sözlə, bu "Sevgililər günü" trendi o qədər inkişaf edib, yoğunlayıb ki, artıq ona nəinki İŞİD və bu tipli radikal terror təşkilatlarının heç Roma papasının da gücü çatmaz. Ona görə də hər il bu günlərdə başlayan "14 fevralın qeyd olunması dini baxımdan düzgün deyil"deyə qanımızı qaraltmayaq

Əksinə, 14 fevralla bağlı məzəli əhvalatları tirajlamaq lazımdır ki, qoy camaatın ürəyi açılsın.

Məndə o cür əhvalatlardan bir neçəsi var.

3-4 il öncədir, 14 fevral günü yolunu "Nərimanov" metro stansiyasının yanındakı parfüm dükanlarının birindən salmışam ki, həyat yoldaşıma hədiyyə alım. Dükana girdim ki, millət var. Heç demə, ölkə sevən cütlüklərlə doludur, heç elə bil başqa vaxt it-pişik kimi bir-birini qıran bunlar deyil.

Bir ətir markası seçdim, kassaya yaxınlaşdım. Növbə vardı. Səbrlə gözlədim. Amma fikir verdim ki, məndən öncəki 35-37 yaşlı cantaraq bir bəy, nəsə çox ləngiyir. Adam 3 dənə çox bahalı ətir seçmişdi, dükanda çalışan qızlardan xahiş edirdi ki, üçünü da ayrı-ayrı büksünlər. Satıcı qız xəfifcə qımışa-qımışa bükürdü. Durumun spesifikliyi mənə birdən çatdı. Ey dadi-bidad, 8 Mart deyil axı. Martın 8-i olsa deyərsən, o, bu ətirlərin birini anasına, birini bacısına, birini xanımına, lap birini də qızına alır. 14 fevral sevgililər günüdürsə, deməli, hədiyyə də bir dənə olmalıdır.

Belə anlaşılırdı ki, əmoğlu dinc adam deyil. Onun hədiyyə aldığı sevgililərdən birini hipotetik olaraq öz nikahlı həyat yoldaşı olduğunu hesaba alsaq, bəs digər ikisi kim idi?

Xülləs, cantaraq kişi ətirləri bükdürdü, hesabı ödədi, hədiyyə paketlərini götürdü, durumu seyr edən adamların maraqlı baxışlarının müşayiəti ilə dükandan çıxdı, cipinə oturub getdi.

Növbə mənə çatanda satıcı qız nəzakətlə soruşdu ki, müəllim, sizdə neçə hədiyyə olacaq. Belə çıxırdı ki, hədiyyələri cüt-cüt alanlar bundan əvvəl də olub. Ta heç nə demədim, seçdiyim hədiyyəni göstərdim və ehmalca ətrafa baxdım ki, görüm, tanış-biliş varmı, görərlər, adıma söz çıxar.

14 fevralla bağlı daha bir məzəli əhvalat isə uzaq qohumumun əsgərlikdə olan oğlunun həmin gün 25 ilin dulu olan nənəsinə zəng vurub, "nənə, sevgililər günün mübarəkdir" deyə onu təbrik etməsidir. Dayısı telefonu alıb, "əə, kopolu, 8 Martı gözləyə bilməzdinmi, nə sevgililər günü" desə də, xeyri olmayıb, arvad deyib, al bu 30 manatı, göndər uşağa.

Budur, hazırda ölkədə yeni bir yasaq sevgi söhbəti gedir. Hadisə məktəbdə olub deyə millət müzakirə edir. Hadisədə bir R.C. inisialı keçir. Necə də simvolikdir. 4-5 yüz il öncənin R.C.-si də (Romeo və Cülyetta) elə bu yaşlarda aşiq olmamışdımı?

Ümumiyyətlə, o yaş elə yaşdır ki, yeniyetmələr bir-birini sevəcək. Videonu görən dostlar deyir ki, ortada heç bir zorlama, sui-istifadə halı yoxdur, uşaqlar çox mehribandırlar, sadəcə, vaxtından qabaq yetişiblər. Buna tibbdə akselarasiya deyilir və bir qədər anormal hal olsa da, faciəvi durum deyil.

Şair əbəs yerə deməyib, dünya köhnə dünyadır, sevənləri təzədir... Bir də belə şeyləri videoya çəkmək, nəsə, təzə şeydir.



# Bayılda sürüşmə təhlükəli həddə

## Hökumətin qərarı gecikir, sakinlər isə çətin durumdadırlar; ekspert "sürüşmənin gələcək təhlükəsi həddindən artıq böyük ola bilər" deyir

**Bayılda sürüşmə zonasında aktivlik davam edir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ərazidə iş aparan mütəxəssisləri bildirirlər ki, orada 20-30 metrlik böyük yarğanlar yaranıb. Qeyd olunub ki, ərazidə topoqrafik işlər aparılır və sürüşmə yerinə mayak qoymaq, başqa işlər görmək mümkünsüzdür.**

Əhalinin isə durumu dəyişməz olaraq qalıb. Hələ də sürüşmə zonasında yaşayan sakinlərə kirayə pulu, kompensasiya verilməyib. Onların bir qismi artıq 3 həftədir 163 saylı məktəbdə gecələyirlər. Yerdə qalanları isə qohumlarının evlərinə sığınıblar. Sakinlər söyləyirlər ki, bu cür yaşamaq onlar üçün çox çətindir.

Sürüşmə sahəsində yaşayan **Zahid Aslanov** "Yeni Müsavat"a bildirib ki, artıq onun evi yaşanılası vəziyyətdə deyil: "Divarların hamısında çatlar var. Bu gün evimdəki bütün əşyaları çıxarıb, qohumumun mənzilinə yerləşdirmişəm. Digər qonşuların da hamısı evlərini boşaldıblar. Bizə icra hakimiyyətinin nümayəndələri vaxt qoyublar ki, evləri boşaltmalısınız. Deyirlər ki, buradan çıxın. Ancaq kirayə pulu vermirlər. Camaat da daha məhəlləyə gəlmir. Heç ərazidə mütəxəssislərə də rast gəlmədim".

Fevralın 10-da Bayılda sürüşmə hadisəsi baş verdikdən sonra əraziyə gələn Səbayel rayon icra başçısı Eldar Əzizov sakinlərə növbəti dəfə söz vermişdi ki, onlara kirayə pulu veriləcək. Lakin bu dəfə də icra başçısının vədi nəticəsiz qalıb. Hökumət hələ də Bayılda yaşayan sakinlərlə bağlı qərar verə bilmir. Ərazidə müəmmalı vəziyyət davam edir.

Bayılda sürüşmənin nə zamana qədər davam edəcəyi və başvermə səbəbləri ilə bağlı müxtəlif versiyalar irəli sürülür. Bəzi mütəxəssislər hesab edirlər ki, sürüşmə yay aylarında dayana bilər.

**Vəziyyətlə bağlı "Yeni Müsavat"a 1971-1986-cı illərdə Bakı Baş Tikinti İdarəsinin rəisi və Bakı Şəhər Soveti sədrinin I müavini vəzifəsində işləmiş Əzim Məsimov danışıb. O bildirib ki, sürüşmənin səbəbi tapılmayana qədər proses davam edəcək. Ə. Məsimov eləcə də bir sıra faktlara toxunub:** "Bəziləri deyirlər ki, Bayılda yeraltı çay axdığı üçün sürüşmə baş verir. Bu, Abşeron yarımadasında qeyri-mümkündür. Metronun "Nizami" stansiyasının istifadəyə verilməsinə çox az müddət qalmış stansiyanın içərisini çay kimi su basdı. O vaxt bildirdilər ki, bu subasmanın səbəbi "Qanlı göl"dür. Həmin su qayaların arası ilə süzülür, axırda haradasa yığılır. Nəticədə birdən-birə çay kimi axmağa başlayır. İndi Bayıl ərazisində də sürüşmənin konkret səbəbləri var. Birinci səbəb kimi "Alov qüllələri"ni görürəm. Belə ki həmin qüllələrin bünövrəsi çox dərində yerləşir. Qüllənin ətrafında da böyük qala kimi tikili var. Onun da dərinliyi azı 8-10 metrdir. Həmin tikintilər nəticəsində ərazidə olan qrunt sularının istiqaməti dəyişib, Bayıldakı sürüşmə tərəfə yönəlib. Bayıldakı sürüşmə hadisəsinin ikinci səbəbi isə Badamdar ərazisindəki tikintilər ola bilər. Sovet hökuməti dağıldıqdan sonra Səbayel Rayon İcra Hakimiyyəti həmin torpaqları ayrı-ayrı adamlara satmağa başladı. Nəticədə burada evlər tikildi. Bu fərdi evlərin kanalizasiya suları isə müxtəlif yerlərə axır. Kimisi həyətində quyu qazıb suya ora axıdır, kimisi kanalizasiyasını istismar müddəti başa çatmış neft quyularına bağlayıb və sairə. Bütün bu kimi illərlə yığılan sular haradansa çıxmalı idi. Hesab edirəm ki, bu sular da qayaların arası ilə məhz Bayıl yamacına axır. Hadisənin baş verməsinə səbəb kimi üçüncü bir faktor da var. Belə ki, Botanika bağının üstündə 2 su rezervuarı var. Onlar texniki su üçündür. Həmin rezervuarlardan biri su ilə dolu idi. Ola bilər ki, köhnə olduğu üçün rezervuardan su sızır. Bunu da yoxlamaq lazımdır. Əgər belədirsə, həmin suyun da istiqaməti məhz Bayıla tərəfdir. Şəhərdən Badamdara gedən yolun sağında da içməli su anbarları var. Həmin anbarlar da köhnədir. Yəni su axan yeri yox, onun 5 kilometr radiusunu axtarmaq, araşdırmaq lazımdır".



**Ekspert bildirib ki, bundan öncə də baş verən sürüşmələrin səbəbləri su sızıntıları olub:** "Bayıl yamacında Zoopark ətrafında da sürüşmə var idi. Səbəb isə Azərbaycan Televiziyasının həyətində 3 minlik su anbarı olub. Həmin anbar illərlə su buraxırmış. Bunun qarşısı alınan kimi sürüşmə də dayandı. Nəriman Nərimanovun heykəlindən aşağıda baş verən sürüşmənin də səbəbi dairəvi evlərin kanalizasiya suları oldu. Həmin kanalizasiya sistemini düzəltdilər, sürüşmə daha baş vermədi. Zığda baş verən problemin isə səbəbi orada vaxtilə fəaliyyət göstərmiş Kərpic zavodu olub. Həmin zavod 40 ilə yaxın işlədi. Orada böyük dərə var və bura su yığılıb sürüşmə yaradıb. O zavodun fəaliyyətinin dayanmasında səbəbkar mən olmuşam ki, ərazidən torpaq götürülməsin. Bayıldakı proses su axınının mənbəyi tapılana qədər davam edəcək. Gil tökmək və digər bu kimi hadisələrlə sürüşmənin qarşısını almaq olmaz. Əgər mənbə tapılmasa, bu sürüşmənin gələcək təhlükəsi həddindən artıq böyük ola bilər. Bayıl yamacının şəhərə baxan şimal hissəsində əvvəllər şam ağacları əkilmişdi. Hacıbala Abutalıbov həmin ağacların çıxartdırdı, yerində binalar tikildi. Növbəti sürüşmə orada baş verəcək. Bütün bu hadisələrin də hamısının səbəbkarları vəzifədədirlər. Yamacda tikilən evlərin hamısı yamacı kəsib, tikintini elə aparıblar. Onların kanalizasiyası da yoxdur. Bütün sular çuxurlara axır. Bildirirlər ki, yağış yağdı, sürüşmə aktiv fazaya keçdi. Axı bu il heç demək olar ki, yağış yağmayıb axı. Səbəb kimi yağış göstərilə bilməz. Bütün bunlar yalnız insan fəaliyyətinin nəticəsində əmələ gəlib".

**Ə. Məsimov bildirib ki, hazırda Teleqüllə üçün təhlükə yoxdur:** "Teleqüllənin də bünövrəsi çox dərindədir. Hələ ki qüllənin ətrafı sürüşsə də özünə təsiri olmayacaq. Yalnız zəlzələ nəticəsində Teleqüllənin uçma təhlükəsi yarana bilər. Orada evləri sökməyi planlaşdırırlar. Məsələ evlərin ağırlıq yaratması deyil. Torpağı kəsiblər və yer var ki, orada artıq çökuntü baş verir. Torpaq doyur, başlayır sürüşməyə. Torpağın da növləri var. Elə torpaq var ki, su nəticəsində çökür, digərləri sürüşür və ya şişir. Bayılda hansı torpaq növünün olmasını laboratoriyada analizlər nəticəsində bilmək olar".

❑ Əli RAİS,
❑ "Yeni Müsavat"



# İşğalçı düşdüyü siyasi-iqtisadi bataqlıqdan çıxış yolu axtarışında

## Erməni siyasətçi hakim rejimə od püskürdü: "Biz həll olunmamış Qarabağ konfliktinə görə siyasi-iqtisadi dalandayıq"; Levon Ter-Petrosyanın partiyası: "Müharibənin bitməsi Ermənistanın inkişafı və inteqrasiyası üçün yeganə yoldur..."

**Dağlıq Qarabağ probleminin həllinə gətirməyən hər ötən il işğalçı Ermənistanın təcridini daha da gücləndirir, onun iqtisadi göstəricilərini bir az da pisləşdirir. Düşmən ölkə bataqlıq effekti kimi, tərpəndikcə ildən-ilə daha dərin iqtisadi-siyasi böhrana girir, ölkə daha sürətlə boşalır. Bunu təkcə biz demirik, biz yazmırıq. Erməni ekspertləri və siyasətçilərin özləri də car çəkir, hətta kriminal Sərkisyan rejiminə od püskürürlər. Bu da hakimiyyətə ünvanlı növbəti sərt ismarış.**




"Ermənistan bölgədə dövlətlərarası iqtisadi əlaqələr mənzərəsində demək olar, sıfır yeri tutur. Bütün regional və beynəlxalq xətlər - nəqliyyat, dəmir yolu, neft-qaz, istənilən başqa kommunikasiya bizdən yan keçir. Ermənistan təkcə siyasi yox, həm də iqtisadi blokada şəraitindədir. Hər tərəf onun üzünə bağlıdır və heç bir regional layihədə o, iştirak eləmir".

"Yeni Müsavat"ın məlumatına görə, bu sözləri sabiq prezident Levon Ter-Petrosyanın rəhbəri olduğu müxalif "Ermənistan Milli Konqresi" Partiyası sədrinin müavini **Aram Manukyan** "Vestnik Kavkaza" nəşrinə işğalçı ölkənin hazırkı durumunu şərh edərkən deyib.

**Erməni siyasətçinin sözlərinə görə, hətta Ermənistan hökuməti regional proqramlara həvəs göstərmir:** "Yeni biz Qafqazda, sadəcə olaraq, mövcud deyilik. Özü də 20 ildən artıqdır ki, belə vəziyyət hökm sürür. Bu illər ərzində Ermənistandan yox, Gürcüstandan keçən Bakı-Tiflis-Ceyhan neft kəməri, Bakı-Tiflis-Qars dəmir yolu da daxil, çox sayda layihələr bizdən yan keçib. İndi də "Şimal-Cənub" və "İpək yolu". Sanki biz bölgədə yoxuq. Ermənistan de-yure Qafqazdadır. Ancaq o, buradan keçən heç bir layihədə yoxdur. Biz iqtisadi anlamda dalandayıq, bu səbəbdən heç kəs Ermənistana pul qoymur. Əgər əvvəllər ildə 3-4 milyard dollar investisiya alırdıqsa, ötən il bu rəqəm cəmi 120 milyon dollar olub. Bu - heç nədir. Situasiyanı həm də korrupsiya daha da qəlizləşdirir. Bu vəziyyətdə heç bir normal adam öz pulunu Ermənistana qoymağa risk eləməz".

**Partiya yetkilisi yaranmış vəziyyəti birbaşa həll olunmamış Dağlıq Qarabağ problemi ilə bağlayır:** "Bəli, bu belədir. Müharibə ölkəni heç cür inkişaf etməyə qoymur. Axı iqtisadi inkişafdan ötrü sakitlik, stabil daxili siyasi və xarici siyasi vəziyyət lazımdır. Bizdə isə konflikt ucbatından belə bir şey yoxdur. Yarımmüharibə, yarımsülh - pul yatırmaq üçün məqbul mühit deyil. Ermənistan üçün ən böyük təhdid - həll olunmamış Dağlıq Qarabağ problemidir. Bu problemi həll eləmək lazımdır. Keçən il, parlament seçkilərinə gedərkən də onun həllini biz öz siyasi proqramımızda 1 nömrəli məsələ kimi qoymuşduq. Yalnız bizim partiya konfliktin nizamlanmasına dair proqramla çıxış eləmişdi. Biz başa düşürük ki, müharibənin bitməsi - Ermənistanın inkişafı və inteqrasiyası üçün yeganə yoldur".

**"Belədirsə, o zaman Ermənistan regional iqtisadi əməkdaşlıqda öz mövqeyini möhkəmlətmək üçün hansı addımlar ata bilər" sualına belə cavab verib:** "Bundan ötrü Qarabağ probleminin nizamlanması, siyasi və diplomatik səylərin artırılması, status-kvo məsələsinin həlli tələb olunur. Fikrimcə, bizim xalqımız üçün ən vacibi budur - 24 ildir olduğumuz dalan vəziyyətindən çıxmaq. Belə davam edə bilməz. Qarabağ uğrunda müharibə cəmi iki il olub, amma o vaxtdan 24 il keçib və müharibəsonrası konflikt situasiyası heç yerə dəyişmir. Bu da xalqları və dövlətləri əldən salır, ölkələrə inkişaf üçün mane olur. Bu situasiyadan, bu çuxurdan çıxmaq lazımdır. Əgər Qarabağ münaqişəsini nizamlamaq müyəssər olsa, o zaman bizim Azərbaycan və Türkiyə ilə sərhədlərimizin açılması məsələsi də həllini tapacaq. Türkiyə və Azərbaycan Dağlıq Qarabağ konflikti və sərhədlərin açılması məsələsində yekdildir və bu istiqamətdə həmahəng işləyir. "Erməni Milli Konqresi" bütün qonşularla yaxşı əlaqələrin, xüsusən də yaxşı iqtisadi əlaqələrin tərəfdarıdır. Nədən ki, bu, bizim ölkənin inkişafını təmin edəcək", - deyə erməni müxalifətçi sonda bildirib.



*****

Nə əlavə eləmək qalır? Əlbəttə ki, Levon Ter-Petrosyanın partiyadaşı haqlıdır. Ancaq əfsuslar olsun ki, bu yanaşma Ermənistanın siyasi isteblişmentində hələ ki aparıcı deyil. Kriminal Sərkisyan rejimi erməni xalqının ən ümdə maraqlarını çoxdan öz klanının maraqlarına qurban verib. 20 il öncə - 1998-ci ildə Ter-Petrosyan hakimiyyətini də "Qarabağ klanı" məhz bu məqsədlə devirmişdi - problem illərlə uzansa da öz qrup maraqlarını təmin eləmək.

Çünki Sərkisyan iqtidarının Qarabağla bağlı əsassız, maksimalist və absurd tələblərini Azərbaycan tərəfi heç vaxt qəbul eləməyəcək. Bunu hamıdan yaxşı elə Serj Sərkisyanın özü bilir. Lakin Xocalı hərbi canisi gerçəyi etiraf edib konstruktiv mövqe tutmaqdan qorxur. Əks halda, erməni xalqı ona haqlı suallar ünvanlayacaq: elə isə problemin konstruktiv, mərhələli həllini təklif edən Levon Ter-Petrosyanı zorla hakimiyyətdən salmağa, münaqişə zonasında bunca əlavə gənc insanları qurban verməyə, bunca sosial-iqtisadi iztirablara, nəhayət, ölkəni Rusiyanın ucqar quberniyasına çevirib bütün iri regional iqtisadi və nəqliyyat layihələrindən təcrid edilməyə və ağır blokada şəraitində yaşamağa dəyərdimi? Dəyməzdi, təbii ki...

*****

**Azərbaycan isə heç vaxt bugünkü status-kvo ilə razılaşmayacaq. Bu sözləri axar.az-a açıqlamasında deputat Asim Mollazadə deyib. Onun sözlərinə görə, Bakı real danışıqlara hər zaman hazırdır.**

"Dövlət başçısı əslində bir neçə gün öncə həqiqətləri açıqladı ki, Dağlıq Qarabağ və ətraf rayonların işğal siyasətinin bu şəkildə davam etdirilməsi yolverilməzdir. Bu, beynəlxalq ictimaiyyətə mesaj idi ki, Ermənistan və onun arxasında dayanan qüvvələr Azərbaycana qarşı ərazi iddiaları planını həyata keçirmək istəyirlər. Bunu yaxşı bilən prezident YAP-ın qurultayındakı çıxışı ilə Azərbaycana qarşı sözügedən planın məhvinə işarə verdi. Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin yaradılmasına imkan verməyəcək və heç vaxt bugünkü status-kvo ilə razılaşmayacaq" - o qeyd edib.

**Deputat bildirib ki, seçkilərdən sonra danışıqlar prosesi davam etdiriləcək.** "Çünki Azərbaycana böyük strateji layihələrini həyata keçirməsi üçün bölgədə təcili sülh və sabitlik lazımdır. Azərbaycanın heç kimə ərazi iddiaları yoxdur və heç vaxt da torpaqlarının işğalı ilə barışmayacaq", - deyə



## Türkiyədən qaçan PKK terrorçuları Ermənistana toplaşır

**"Terrorçu PKK qruplaşmasının üzvləri Türkiyədən qaçaraq Ermənistana toplaşırlar". Bunu Ermənistanın "Jamanak" qəzeti yazıb.**

Məqalədə qeyd olunub ki, onlar Türkiyənin ərazi bütövlüyü və suverenliyinə qarşı çıxdıqları, təhlükəsizliyinə təhdid yaratdıqları, bu istiqamətdə terror fəaliyyəti ilə məşğul olduqları və qanunsuz silahlı dəstələr yaratdıqları üçün ölkənin təhlükəsizlik qüvvələrinin keçirdikləri antiterror əməliyyatları nəticəsində müxtəlif formada zərərsizləşdirilirlər.

"PKK hesab edir ki, Moskva və İrəvan bu terrorçu qruplaşmaya yumşaq mövqedən yanaşır. Ona görə də terrorçular Ermənistana toplaşırlar. Ermənistan sərhədini qoruyan Rusiya hərbçiləri terrorçuların Türkiyə-Ermənistan sərhədini keçməsinə şərait yaradırlar. Sərhədi keçən PKK-çılar Ermənistanın hakimiyyət orqanlarına təslim olurlar", - deyə məqalədə vurğulanıb.

Qeyd edək ki, bir neçə ay əvvəl Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsində terrorçu PKK-nın 12 düşərgəsinin olduğu və orada 1750 terrorçunun təlim keçdiyi barədə məlumat yayılmışdı.

YENİ MÜSAVAT
N 35 (6924) 14 fevral 2018

**Ötən ilin ortalarından başlayaraq Azərbaycanda hava şəraiti quraq keçir. Nəinki düzən və mərkəzi ərazilərdə, hətta dağlıq ərazilərdə belə qış fəslinə uyğun olmayan mülayim hava müşahidə olunur. Qış aylarında qarın düşməməsi isə kənd təsərrüfatı əkinləri ilə yanaşı, əhalinin içməli su təchizatı üçün də yaxşı heç nə vəd etmir. Belə ki, rayon və kəndlərdə həmişə qış aylarında bol sulu olan kiçik çayların çoxu indidən quruyub. Yerlərdə əhali arasında quraqlığın yaradacağı problemlərlə bağlı təşviş hiss olunmaqdadır.**

# Ölkədə quraqlıq və içməli su qıtlığı gözlənilir

## Qışda qarın düşməməsi kənd təsərrüfatı əkinləri ilə yanaşı, əhalinin içməli su təchizatı üçün də yaxşı heç nə vəd etmir



Onu da qeyd edək ki, Azərbaycan su ehtiyatlarının məhdudluğuna və şirin su ehtiyatlarının həcminə görə Cənubi Qafqazın ən "kasıb" ölkəsi sayılır. Respublika ərazisindəki irili-xırdalı 8359 çaydan yalnız 171-nin uzunluğu 25 kilometrdən artıqdır. 7861 çayın uzunluğu 10 kilometrdən də azdır.

Azərbaycanda çayların yerüstü axını hidroloji ildən və mövsümlərdən asılı olaraq kəskin dəyişir. Bu dəyişkənlikdən asılılığı azaltmaq məqsədilə bir sıra çayların üzərində su anbarları yaradılıb. Belə anbarların sayı 140-a qədərdir. Onların ümumi sahəsi 87 min hektar, suyunun həcmi isə 22 kubkilometrə yaxındır.

Bundan əlavə, Azərbaycan ərazisində ümumi sahəsi 394 kvadratkilometr olan 450-yə yaxın göl mövcuddur ki, bunlardan da 200-ə yaxını yay aylarında quruyur.

Azərbaycan ərazisində içməyə yararlı sular məhdud ehtiyatlara malik olmaqla qeyri-bərabər paylanıb. "Azərsu" ASC-nin məlumatına görə, hazırda ölkənin yerüstü su ehtiyatları 27 kubkilometr təşkil edir, quraq illərdə isə bu ehtiyat 20-21 kubkilometrə qədər azalır.

Azərbaycanda çayların qidalanmasında və illik su ehtiyatlarının tənzimlənməsində mühüm rol oynayan buzlaqlar əsasən Böyük Qafqaz dağlarında formalaşıb. Rəsmi məlumatlara görə, son 70 ildə dağ zirvələrindəki buzlaqların sahəsi xeyli azalıb. Bu isə çaylarda sululuğun azalmasına gətirib çıxarıb.

**Azərbaycan Milli Elmlər Akademiyası Həsən Əliyev adına Coğrafiya İnstitutunun direktoru, akademik Ramiz Məmmədovun sözlərinə görə, ölkə ərazisindəki quraqlıq qlobal iqlim dəyişikliyinin nəticəsidir:** "Hələ on illər əvvəldən dünya alimləri proqnozlar vermişdilər ki, qlobal iqlim dəyişikliyi ciddi nəticələrə səbəb olacaq: yağıntıların miqdarı çox olan yerlərdə daha da artacaq, quraqlıq olan ərazilərdə yağıntılar daha da azalacaq. Azərbaycanın 60 faizdən çoxu quraqlıq ərazilər hesab olunur. Buna görə də biz qlobal iqlim dəyişikliyinin nəticələrini hiss etməyə başlamışıq. Çayların çoxunda may ayından başlayaraq su azalır".

**İnstitut direktoru deyir ki, iqlim dəyişikliyinin yaratdığı fəsadlara qarşı önləyici tədbirlər görülməlidir:** "Bu tədbirlər çayların üzərində su anbarlarının yaradılması, yeraltı su ehtiyatlarının bol olduğu ərazilərdə artezian quyularının qazılmasıdır. Azərbaycanda hər iki istiqamətdə böyük işlər görülür. Bir su anbarının yaradılması, bilirsiniz, nə qədər böyük işdir?"

**R.Məmmədov hesab edir ki, dövlətin həyata keçirdiyi tədbirlərlə yanaşı, insanların sudan istifadəyə yanaşması dəyişməlidir:** "Bilirsiniz, bizim insanlarda sovet psixologiyası qalır hələ: heç nədən qənaətlə istifadə etmirik, o cümlədən də sudan. O qədər boş-boşuna su axıdırıq ki... Amma Avropada, Amerikada, əksər ölkələrdə suya çox qənaətlə yanaşırlar. Çünki dəyərini bilirlər. Suyun satışı, idarə olunması, istifadəsi çox bacarıqla tənzimlənir. Dünyanın heç yerində ləklə suvarma qalmayıb, bizdən başqa. Ləklə suvarma həm israfçılığa gətirir, həm də torpağın şoranlaşmasına səbəb olur. Müasir suvarma üsullarına keçməyin vaxtı çatıb çoxdan".

Onu da qeyd edək ki, Azərbaycanda hər il kəndlərin təmiz içməli su ilə təchizatına on milyonlarla manat vəsait ayrılır. Məsələn, ötən il ölkə prezidentinin sərəncamları ilə 28 rayonun 171 kəndində içməli su təchizatı sisteminin qurulması üçün "Azərsu" ASC-yə 14 milyon manat, 15 rayonun 103 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğuların quraşdırılması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyinə (ETSN) 16 milyon manat vəsait ayrılıb.

**"Azərsu" ASC-nin mətbuat xidmətindən aldığımız məlumata görə, prezident sərəncamının icrası istiqamətində işlərin 99 faizi həyata keçirilib:** "535 km müxtəlif diametrli su xətti çəkmishik, 1432 bulaq quraşdırılıb".

**ETSN-dən bildirildiyinə görə, əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması tədbirləri çərçivəsində fəaliyyət davam etdirilir:** "2017-ci ildə 77363 nəfər əhalini içməli su ilə təmin etmək məqsədilə 103 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğuların quraşdırılmasına başlanılaraq 39 yaşayış məntəqəsində modul tipli sutəmizləyici qurğular istismara verilib. 26 yaşayış məntəqəsində tikinti işləri yekunlaşaraq istismara verilməsi üçün son tamamlama işləri aparılır, 38 yaşayış məntəqəsində isə tikinti-quraşdırma işləri yekunlaşmaq üzrədir. Bununla da regionlarda modul tipli sutəmizləyici qurğuların quraşdırılması hesabına 484 yaşayış məntəqəsində keyfiyyətli içməli su ilə təmin edilmiş əhalinin sayı 700 mini keçmiş olur".

**❑ Dünya SAKİT,**
**❑ "Yeni Müsavat"**



# Əli Həsənovun dediklərinə etiraz gəldi

## "Xalq diplomatiyası çoxdan iflasa uğrayıb"

**Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bildirib ki, 24 ildir Dağlıq Qarabağ münaqişəsi həllini tapmır: "Bu, ədalətsizlikdir. Bütün bunlara baxmayaraq, Azərbaycan və Ermənistan xalqları düşmən deyil. Amma dünyaya yayırlar ki, guya bizim xalqlar arasında düşmənçilik var. Bu, belə deyil. Bunu da yayan 200 ildir mövcud olan erməni diasporudur. Biz hər kəsi ölkəmizə dəvət etməklə çox düzgün yol seçmişik. Məqsəd odur ki, ölkəmizə gələnlər əsl reallıqları öz gözləri ilə görsünlər. Artıq biz bu yolun müsbət nəticələrini də görməkdəyik. Azərbaycan dünya üçün açıq, tolerant bir ölkədir. Burada bütün millətlərin, dinlərin nümayəndələri əmin-amanlıq şəraitində, bir ailə kimi yaşayırlar, onların öz ibadət yerləri var. Bakıda kilsələr, sinaqoqlar fəaliyyət göstərir. Hətta Bakıda erməni kilsəsi də qorunub saxlanılıb".**

Bu isə səsləndiyi gündən etibarən mətbuatda ciddi müzakirələrə səbəb olub. AG Partiyanın sədri Tural Abbaslı hesab edir ki, bu, hakimiyyətin beynəlxalq arenada erməni lobbisinə uduzmasıdır. Müsahibimizin sözlərinə görə, ermənilər özlərini hər fürsətdə qurban xalq kimi qələmə verirlər və bu, beynəlxalq platformada hakim fikirlərdir: "Hakimiyyət bunun qarşısını almaq üçün kompensasiya edir. Adını xalq diplomatiyası qoysaq da, bunun qarşısını almaq olmaz. Bu, bugünkü dünya reallıqlarına uyğun deyil. Bu xalqa düşmənim deməyi bacarmalıyıq. Zatən ermənilər bizə heç vaxt dost kimi baxmayıb".

**T.Abbaslının fikrincə, dövlət başçısı bu fikri beynəlxalq tədbirlərdə səsləndirə bilər. Müsahibimiz dedi ki, baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun bu sözləri deməsi doğru deyil. T.Abbaslının dediyinə görə, bu halda onun rəhbərlik etdiyi komitənin, qurumun da mahiyyəti şübhə altına düşür:** "Bunlar, sadəcə, Roma papasından artıq katoliklik etməkdir. Müsbət tendensiya deyil. Daxildə döyüş əhval-ruhiyyəsinin, özgüvənin azalmasına xidmət edir. Türkiyə qonşu ölkədə hərbi əməliyyatlar edir. Amerika Suriyada mövqelər tutur. Biz niyə öz torpaqlarımızda bunu edə bilməyək? Məqbul hesab etmirəm.Düşünmürəm ki, xalq bunu məqbul hesab edəcək. Xalq diplomatiyası hər iki ölkədə iflasa uğrayıb. Hesab edirəm ki, buna davam etmək lazım deyil".

**❑ Sevinc TELMANQIZI**
**❑ "Yeni Müsavat"**

# "Quş qripi" ilə bağlı rəsmi xəbərdarlıq

## İrandan ölkəmizə diri quş və quşçuluq məhsullarının gətirilməsinə qadağa qoyulub

**Dövlət Baytarlıq Xidməti "quş qripi" ilə bağlı açıqlama yayıb.**



Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (BEB) son məlumatlarına istinad edərək bildirir ki, dünyanın bir sıra ölkələrində (İtaliya, Koreya Respublikası, Konqo, İraq, İran, İngiltərə, Rusiya, Əfqanıstan, Çin və digər ölkələrdə) quşlar arasında "quş qripi" xəstəliyi qeydə alınıb.

Hazırda bu xəstəlik Azərbaycan Respublikası ilə həmsərhəd olan İranın da bir çox regionlarında müşahidə edilir. Qonşu ölkədən verilən məlumata görə, İranda quşlar arasında "quş qripi" virusunun yayılması və əhalinin sağlamlığının qorunması məqsədilə 25 milyona qədər quş zərərsizləşdirilib. Həmçinin hər gün bu xəstəliyin yayıldığı bildirilib.

Bununla əlaqədar "quş qripi" xəstəliyi baş vermiş ölkələrdən və regionlardan, o cümlədən İrandan ölkəmizə diri quş və quşçuluq məhsullarının gətirilməsinə qadağa qoyulub və bu barədə aidiyyəti qurumlara məlumat verilib.

Respublikamızın quşların "miqrasiya xətti" üzərində yerləşməsini və qonşu ölkədə "quş qripi" xəstəliyinin yayılmasını nəzərə alaraq Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti əhaliyə və quşçuluq təsərrüfatlarının rəhbərlərinə təsərrüfatlarında saxlanılan quşları "quş qripi" xəstəliyindən qorumaq, qabaqlayıcı tədbirlər görmək məqsədilə ev və sənaye quşlarının qapalı şəraitdə, baytarlıq-sanitariya qaydalarına uyğun saxlanılmasını tövsiyə edir.

Hazırda "quş qripi" və digər iti yoluxucu xəstəliklərə görə respublikada epizootik vəziyyət sabitdir.

YENİ MÜSAVAT
N 35 (6924) 14 fevral 2018

# Prezidentin İrəvan hədəfinin arxasındakı mesajlar...

## Elman Nəsirov: "Bu onun göstəricisidir ki, Azərbaycan son dərəcə güclənib, Ermənistan isə son dərəcə zəifləyib"

**Prezident İlham Əliyevin fevralın 8-də rəhbəri olduğu Yeni Azərbaycan Partiyasının VI qurultayındakı çıxışı zamanı tarixi torpaqlarımızla bağlı səsləndirdiyi fikirlər Ermənistanda xof yaradıb. Erməni analitiklərin mövqelərində bunu açıq şəkildə sezmək olur. Ermənistanın 1in.am saytında saytın analitiki Sərkis Artsrunin açıqlamaları gedib. O bildirib:**

"Əgər belə davam etsə, Əliyev təkcə İrəvanı geri qaytarmayacaq, o həm də hamımızın evinə girəcək. İlham Əliyevin çıxışındakı aqressiv ton bizim hakimiyyətin nümayəndələrinin qulaqları üçün nə qədər xoş olmasa da, praqmatik siyasi əsasa sahibdir. Bu, boşalan Ermənistanın, dövlətin gələcək perspektivinin, intitusional çöküşünün təzahürüdür".

Ekspertlər ölkə başçısının hədəfi daha da böyütməklə, düşmən ölkəyə və bütün dünyaya ciddi mesajlar verdiyini bildirirlər.

**Politoloq, deputat Elman Nəsirov "Yeni Müsavat"a** açıqlamasında qurultayda ölkə başçısının Dağlıq Qarabağ və digər məsələləri xüsusi diqqətdə saxladığını söylədi: "Cənab prezident beynəlxalq ictimaiyyətin hələ çox da yaxşı bilmədiyi bir həqiqəti dünyaya bəyan etdi ki, nəinki Dağlıq Qarabağ və ətrafdakı 7 rayon, eyni zamanda bu günləri Ermənistanın paytaxtı olan İrəvan, o zamankı sovet rejiminin siyasəti nəticəsində onun ərazisinə zorla qatılmış Zəngəzur, Göyçə mahalları da Azərbaycan torpaqlarıdır, biz bu tarixi həqiqətləri unutmamalıyıq və unutmuruq. Ölkə başçısı onu da vurğuladı ki, bu tarixi torpaqlara qayıdış məsələsi bizim siyasi və strateji vəzifələrimiz sırasındadır. Bu istiqamətdə artıq bəzi addımlar atırıq. Siyasi və strateji xəttimizdir fikirlərinin çox böyük önəmi var. Bu məsələyə bir strateji məsələ kimi baxırıq. Bu günlərə Ermənistan hakimiyyəti daha ciddi şəkildə tənqid olunmağa başlayıb ki, Azərbaycan prezidenti nədən bu qədər sərt və açıq şəkildə İrəvan, Zəngəzur və Göyçə mahalının adını çəkdi, bu torpaqlara qayıdış məsələsini gündəmə gətirdi. Belə suallar verib cavabını axtarırlar. İlk cavab onunla bağlıdır ki, bəli, bu onun göstəricisidir ki, Azərbaycan dövləti son dərəcə güclənib, eyni zamanda bu onun göstəricisidir ki, Ermənistan dövləti son dərəcə zəifləyib, bu bir də onun göstəricisidir ki, Azərbaycan prezidenti son dərəcə güclü prezidentdir, eyni zamanda Ermənistan prezidenti onunla müqayisə olunmayacaq səviyyədə zəif prezidentdir. Özləri də yazırlar ki, dünyadakı ən pis hakimiyyət nə totalitar, nə də ki avtoritar hakimiyyətdir, ən pis hakimiyyət zəif hakimiyyət olduğunu bildirirlər. Sərkisyan hakimiyyətini məhz zəif bir hakimiyyət kimi qeyd edirlər. Azərbaycan prezidentinin bu qətiyyətli mövqeyini istəsələr də, istəməsələr də, etiraf etmək məcburiyyətində qalıblar".



**Deputat yaranan bəzi suallara da aydınlıq gətirdi:** "Doğrudur, bəzən belə suallar yaranır ki, İrəvan, Zəngəzur və Göyçənin, eyni zamanda digər tarixi torpaqlarımızla bağlı məsələnin gündəmə gətirilməsi Dağlıq Qarabağla bağlı məsələlərin kölgədə qalmasına gətirib çıxarmazmı? Qətiyyən bu belə deyil. Əslində dünya tam həqiqətləri bilməlidir. Cənab prezident bu fikirləri söyləyərkən konkret faktlara, arqumentlərə, arxiv sənədlərinə söykənir. Hər kəsə aydındır ki, ortada kifayət edəcək faktlar, arxiv sənədləri, imzalar var. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti elan olundu, bir gün sonra Xalq Cümhuriyyətinin Milli Şurası İrəvanın Ermənistana verilməsi ilə bağlı qərar qəbul etdi. Həmin qərar qəbul edilərkən, Ermənistan tərəfi öhdəliklər götürdü. Ən böyük öhdəliklərindən biri odur ki, heç bir halda Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyəcəklər. O qərarın özü də hüquqi nöqteyi-nəzərdən düzgün qəbul edilməmişdi. Çünki 3/2 səs çoxluğu ilə qəbul edilməmişdi. Ermənistan yenə də Azərbaycana qarşı ərazi iddiaları sürüb, torpaqlarımızın 20%-ni işğal edib, deməli, 1918-ci il 29 may tarixli qərar öz qüvvəsini itirmiş olur. Həm də dediyim kimi, 3/2-i səs çoxluğu olmadığı üçün hüquqi qüvvəsi yoxdur. Belə olan təqdirdə hesab edirəm ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir çox həqiqətlər dünya ictimaiyyətinə çatmış olur. Bu istiqamətdə hər bir Azərbaycan vətəndaşı fəaliyyət göstərməlidir. Cənab prezidentin bu mövqeyi qətiyyətli şəkildə müdafiə olunmalıdır. Bu gün Ermənistan ona görə panika içərisindədir ki, biz artıq həqiqətləri ortaya qoyub, faktlarla, sənədlərlə Ermənistanı ifşa edirik. Qoy dünyanın ən tanınmış alimlərindən ibarət komissiya yaradılsın, gəlib arxiv sənədlərinə baxsınlar, o zaman görsünlər ki, bu İrəvan şəhəri necə olub ki, Ermənistanın paytaxtıdır? Necə olub ki, 9 min kilometrlik ərazi bizdən alınıb, eyni zamanda onun hüquqi və qeyri-hüquqi tərəfi necədir? Bu məsələlərə real aydınlıq gətirilməlidir. Cənab prezidentin bu mövqeyi həm də ATƏT-in Minsk Qrupunu silkələməlidir ki, bu münaqişəni tezliklə həll etmək lazımdır. Çünki dərinə gedəndə, məsələlər qəlizləşəndə çox həqiqətlər üzə çıxacaq. Elə bir vəziyyət gələ bilər ki, tək Dağlıq Qarabağ deyil, eyni zamanda tarixi torpaqlarımız məsələsini ortaya qoyub, konkret addımlar ata bilərik. Cənab prezident artıq bu mesajı verdi. Bundan nəticə çıxarmaq lazımdır. Əks halda, hadisələr qarşı tərəfin istəmədiyi ssenari üzrə hərəkət edəcək, Ermənistanın havadarları 100% məğlub vəziyyətində qalacaq".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Prezidentliyə iddialıların sayı artır - 11 oldular

## Namizədliyə iddiaçılardan 4-ü deputatdır



**Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərində iştirak etmək üçün daha bir partiya sədrinin namizədliyi fevralın 13-də irəli sürülüb. Azərbaycan Sosial-Demokrat Partiyası (ASDP) Mərkəzi Komitəsinin plenumu partiyanın lideri, deputat Araz Əlizadənin aprelin 11-də keçiriləcək seçkilərdə namizəd kimi iştirak etməsi ilə bağlı qərar qəbul edib. Bununla da namizəd- deputatların sayı 4 nəfərə çatıb.**

A.Əlizadə namizədliyi irəli sürülsə də seçkinin qalibi olmayacağını özü indidən etiraf edib: "Əlbəttə, prezident postu uğrunda mübarizənin şəksiz lideri İlham Əliyevdir. Mənim qarşımda isə partiyamız, ölkənin problemlərinin həllinə onun baxışı haqda danışmaq vəzifəsi durur və biz bunu edəcəyik".

Prezidentliyə namizədliyi AXC təşəbbüs qrupu tərəfindən irəli sürülən yeni AXCP-nin sədri Razi Nurullayevin sənədləri isə fevralın 13-də Mərkəzi Seçki Komissiyasına təqdim edilib. Bu barədə AXCP Ali Məclisinin sədri Rafiq Daşdəmirli bildirib: "Seçki Məcəlləsinə uyğun olaraq 5 gün ərzində baxılıb cavab veriləcək. Ondan sonra rəsmi olaraq imza vərəqələri götürəcəyik". R.Daşdəmirli onu qeyd edib ki, lazımi sayda (40 min) imza toplamaq çətin olmayacaq.

Fevralın 13-nə olan vəziyyətə görə prezidentliyə namizədliyi irəli sürülən şəxslərin sayı 11 nəfərə çatıb. Bunlar hakim Yeni Azərbaycan Partiyasının (YAP) sədri, hazırkı dövlət başçısı İlham Əliyev, Yeni AXCP-nin sədri Razi Nurullayev, Milli Dirçəliş Hərəkatı Partiyasının sədri deputat Fərəc Quliyev, Azərbaycan Sosial Demokrat Partiyasının sədri deputat Araz Əlizadə, Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev, partiya mənsubiyyəti olmayan deputat Zahid Oruc, Azərbaycan Liberal Demokrat Partiyasının sədri Fuad Əliyev, AĞ Partiyanın sədri Tural Abbaslı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri deputat Qüdrət Həsənquliyev, Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev *(Əli Əliyev son qərarını fevralın 17-si elan edəcək),* KXCP sədri Mirmahmud Mirəlioğludur *(M.Mirəlioğlu son qərarını fevralın 17-də elan edəcək).*

2013-cü il prezident seçkisində namizəd olanların bir qismi bu siyahıda yer alır. Lakin sözügedən seçkidə iştirak etmiş şəxslərin bəziləri 11 apreldə keçiriləcək seçkiyə qatılmayacaqlarını elan ediblər. Bunlar Milli Şuranın sədri Cəmil Həsənli, Ümid Partiyasının sədri İqbal Ağazadə və Ədalət Partiyasının sədri İlyas İsmayılovdur. Azərbaycan Demokratik Partiyasının sədri Sərdar Cəlaloğlunun da budəfəki seçkidə iştirak etməyəcəyi gözlənilir. S.Cəlaloğlu bir həftə öncə "Yeni Müsavat"a açıqlamasında bildirmişdi ki, seçkidə iştirak edə bilməməsinin səbəbi maliyyə problemidir. Əgər vəsait tapa bilsə seçkiyə qatılacaq. Ötən seçkilərdə namizəd olmuş Ədalət Partiyasının sədri İlyas İsmayılov da builki növbədənkənar seçkilərlə bağlı qərarını açıqlamayıb.

Azərbaycan Kommunist Partiyası da dünən seçki iştirak edəcəklərini açıqlayıb. Partiyanın sədri Rauf Qurbanov modern.az deyib ki, növbədənkənar seçkinin keçirilməsi ilə ələqədar prezidentin sərəncamı ilə tanış olandan sonra partiyanın Mərkəzi Komitəsinin katibliyi toplaşdı və mart ayının birinci on günlüyü üçün plenumun çağırılması planlaşdırılır.

**YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov isə bildirib ki, prezidentliyə namizədliyini irəli sürmüş hər bir şəxs üçün şərait var:** "Ölkədə ədalətli, demokratik, azad seçki keçirilməsi üçün bütün mühüm şərait var. Qanunvericiliyə uyğun olaraq, hər bir siyasi partiya, tələblərə uyğun olaraq isə hər bir vətəndaş namizədliyini irəli sürə bilər. Buna görə hər bir siyasi partiya üçün hər cür şərait yaradılıb. Seçkilərdə partiya rəhbərlərinin bir hissəsi iştirak edib, digər hissəsi iştirak etmirsə, bunun səbəbləri tamamilə başqadır. Səbəb ondan ibarətdir ki, o təşkilatlar xaricdən maliyyələşir. Onların bəziləri erməni lobbisinin, müəyyən təşkilatların təsiri altındadır. Onlara göstəriş verilib ki, "seçkilərdə iştirak etməyin". Onlar da iştirak etməkdən imtina edib. Ümumiyyətlə, onlara göstəriş versələr ki, "seçkilərdə iştirak edin" edəcəklər, yaxud da əksinə. Bunlar nə dərnəyin üzvlərinin, nə də onların adi rəhbərinin qərarı ilə deyil, hansısa ayrı-ayrı ölkələrin, qeyri-hökumət təşkilatlarının, pul verən şəxslərin tapşırığı ilə oturub-dururlar. Ona görə də heç bir narahatlığa əsas yoxdur. Prezident seçkilərinə iştirak edəcək namizədlərin hamısı da layiqli insanlardır, Azərbaycan vətəndaşlarıdırlar. Kimlər qanunvericiliyin tələblərinə uyğun olaraq, sənədlərini düzgün təqdim edəcəksə, imzalarını toplayıb verəcəksə, o da qeydiyyatdan keçəcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# "Şanxay" sakinləri daha qatar səsi eşitməyəcək: söküntü sürətləndi

## Təhlükəli ərazidə yerləşən yüzlərlə evin taleyi qətiləşdi; sakinlər həm razıdır, həm də narazı; "Həmişə səksəkə içərisində idik ki, uşaqlar qapıdan çıxıb qatarın altında qalar..."

**Uzun müddətdir söküləcəyi söylənilən Keşlə qəsəbəsindəki "Şanxay" adlanan ərazidə, nəhayət, söküntü işləri başlayıb. Öncə onu qeyd edək ki, "Şanxay"da yəni Nizami rayonu, Pəhləvan Fərzəliyev küçəsində 4 mindən çox sənədsiz ev var. Rəsmi məlumata görə, 800-dən çox tikili isə məhz təhlükəli ərazidə yerləşir.**

Nazirlər Kabinetinin 22 yanvar, 2005-ci il qərarına görə, dəmir yolu mühafizə zolağında yerləşən tikililərlə dəmir yolu xətti arasında azı, 20 metr məsafə olmalıdır. "Şanxay"dakı evlərlə dəmir yolu relslərinin ara məsafəsi ən çoxu 3 metrdir. İlkin mərhələdə dəmir yolu xəttinin yaxınlığındakı evlərin köçürülməsi planlaşdırılıb.

Artıq bu evlərin bir hissəsi sökülüb. Digərlərinin isə qapıları nömrələnib, evlərin sahəsi ölçülüb, söküntü işlərinə hazırlıq gedir.

"Yeni Müsavat"ın əməkdaşı olaraq əraziyə yollanıb, görülən işlərlə tanış olduq. Müşahidə etdik ki, "Şanxay" ərazisinin bir hissəsində söküntü işləri aparılsa da, digər tərəfdə həyat əvvəlki tək öz axarı ilə davam edir. Söküntü aparılması planlaşdırılan ərazidə uşaqlar dəmir yolu xətlərinin üzərində "futbol meydançası" yaradıb oynayırdılar. Söylədilər ki, buradan tez-tez qatar keçir. Hər dəfə qatar keçəndə də topları yığışdırırlar. Sonra yenidən futbola davam edirlər...

Hazırda söküntüsü gedən evlərdə qeydiyyat ötən ilin iyun ayında aparılıb. Söküntü işlərinə isə sakinlərin sözlərinə görə, 2 aya yaxındır başlanılıb. Müşahidə etdik ki, ərazidə sakinlərin səhhəti üçün təhlükə yaradan təkcə qatarlar deyil. Əksər evlərin altında qrunt suları yığılıb. Bundan əlavə, dəmir yolu xəttinə yaxın ərazidə yerləşən evlərin heç birinin sənədi olmayıb. Lakin buna baxmayaraq, söküntü aparılan zaman sakinlərə kompensasiya ödənilib. Belə ki, sakinlərə evlərinin sahəsinə uyğun olaraq müxtəlif məbləğ verilib. Hər kvadratmetr üçün isə standart olaraq 1000 manatın ödənilməsi nəzərdə tutulub. Lakin söhbət etdiyimiz sakinlərdən bəziləri bildirdilər ki, onlara kvadrata 700-800 manat veriblər.



Bunu da öyrəndik ki, kimin evinin bələdiyyə sənədi olubsa, onlara hər kvadrata görə 1000 manat ödənilib. Evinin heç bir sənədi olmayana isə məbləğ aşağı verilib. Buna baxmayaraq, söhbət etdiyimiz sakinlər narazılıq etmədilər. Bildirdilər ki, ərazidə onsuz da yaşamaq çox çətin idi.

**Əhməd Cəfərov söylədi ki, camaatın çoxu buradakı pulunu alıb Qobu tərəfə gedib:** "Burada dəmir yoluna yaxın ərazidə yerləşən evlərin sahələri çox kiçik idi. Ona görə də əhali elə də böyük məbləğdə kompensasiya ala bilmədi ki, onunla başqa yerdən ev alsınlar. Şəxsən mən Qobudan torpaq almışam, orada ev tikdirirəm. Eləcə də bir çox evi sökülən şəxs bu cür edib. Burada vəziyyət çox pis idi. Nəmişlik əlindən tərpənmək olmurdu. Oktyabr ayından sonra həyətləri su basırdı. İndi də ərazi suyun içərisindədir. Həmişə səksəkə içərisində idik ki, uşaqlar qapıdan çıxar, qatarın altında qalar. Burada bədbəxt hadisələr tez-tez baş verirdi. Ona görə də bir tərəfdən elə köçürülməyimiz yaxşıdır".

**Evi hələ nömrələnən və söküntü aparanların "B" hissəsi adlandırdıqları ərazidə yaşayan Cavid Kərimov isə bildirdi ki, onlara da artıq söküntü ilə bağlı xəbərdarlıq edilib:** "Bildirdilər ki, bizim evləri yaya kimi sökəcəklər. Hələ ki konkret olaraq kompensasiya məbləği deyilməyib. Mənim torpağımın sənədi bələdiyyədəndir. Burada bütün normal evlərdə bələdiyyə sənədi də olsa, var. Son zamanlar dəmir yolu xəttinin yaxınlığında gecəqondular tikilmişdi ki, onların heç birinin sənədi yox idi. Ancaq sağ olsunlar ki, həmin tikililərin də sahiblərində müəyyən qədər pul verdilər. Biz də evimizin söküləcəyi günü gözləyirik. Kimin evinin sahəsi böyükdürsə, o, söküntü işləri ilə razıdır. Ancaq kimin evi kiçikdirsə, buna qarşı çıxır, narazılığını bildirir. Burada evlər 1990-cı illərin əvvəllərindən çoxalmağa başladı. Son zamanlarda tikintilər aparılmır. Çünki artıq evlər dəmir yolu xəttinə dirənib. Hər anımız təhlükədir. Yuxarıda yüksək gərginlikli elektrik xətti, aşağıda da qatar..."

Sakinlər onu da qeyd etdilər ki, evlər söküldükdən sonra dəmir yolu xətlərinin sayının artırılacağı söylənilir.





**Məsələ ilə bağlı daha dəqiq məlumat əldə etmək üçün Azərbaycan Dəmir Yolları QSC-nin mətbuat xidməti ilə əlaqə saxladıq. Mətbuat xidmətindən "Yeni Müsavat"a bildirildi ki, evlər söküldükdən sonra dəmiryolu xətlərində yenilənmə işlərindən başqa heç bir dəyişiklik nəzərdə tutulmur:** "Köhnəlmiş və sıradan çıxmış yolun üst quruluşu elementlərinin yeniləri ilə əvəzlənməsi nəzərdə tutulub. Yolların sayının artırılması nəzərdə tutulmur".

**Söküntü işlərinin nə zamana qədər davam etməsinə gəlincə isə aşağıdakıları bildirdi:** "Söküntü işləri dəmir yolunun mühafizə zolağı qeyri-qanuni tikililərdən tam təmizlənənə və qatarların təhlükəsiz hərəkətinin təmin edilməsinə imkan verən vəziyyətə gətirilənə qədər davam etdiriləcəkdir".

❑ **Əli RAİS,**

# Əlil olan iki uşaq anasının evi əlindən alındı

## 12 ildir yoxa çıxan, ölmüş bildiyi əri qayıdıb qadının həyatını necə alt-üst etdi...

**Evinin bir hissəsinin məhkəmə yolu ilə əlindən alınmasına etiraz edən iki uşaq anası, II qrup əlil Sədaqət Balabəy qızı Dadaşova redaksiyamıza üz tutub. 2003-cü ildə Nəriman Feyzulla oğlu Rəhimovla ailə quran Sədaqət xanım deyir ki, 2 il sonra əri onları ataraq Rusiyaya gedib və 12 il ərzində ondan xəbər çıxmayıb:**

"Mən 4 il səbirlə onun yolunu gözlədim. Daha sonra bir xəbər çıxmadığını görüb, dövlət qurumlarına müraciət etdim. Həmçinin bizə sahib çıxmadığı üçün alimentlə bağlı ərizə verdim. Ancaq uzun illər ərzində dövlət qurumları Nəriman Rəhimov haqqında heç bir izə rast gəlmədi. Nəticədə Nizami Rayon Məhkəməsinə müraciət etdim. Məhkəmə hər yerə sorğu verdi, yenə heç bir məlumat olmadığı üçün onun haqqında ölmüş qərarı çıxarıldı. Bu illər ərzində iki övladımı əlil vəziyyətimlə çox böyük çətinliklə böyütdüm. Ərim bizi atıb gedəndə bir oğlum var idi, ikincisinə isə hamilə idim. İndi birinin 19, digərinin 12 yaşı var. Ali təhsilli müəllimə olduğum halda gedib xadimə işlədim. Lakin bütün bunların əvəzində evim əlindən alındı".

**Şikayətçi deyir ki, əri 2017-ci ildə, ara sakitləşdikdən sonra çıxıb gəlib. Bundan sonra da ailəsinə zərər verməkdən çəkinməyib:** "Sən demə, Nəriman Rusiyada gizli yaşayırmış və ailəsi, anası, bacısı ona məlumat ötürürmüş ki, ölkəyə gəlmə, sən axtarışdasan. Ona görə də Azərbaycana gəlmirmiş. 2017-ci ilin yanvar ayında sərhədi keçib Azərbaycana gələndə axtarışda olduğu üçün onu tutdular. 20 gün inzibati qaydada həbs etdilər. Daha sonra alimentdən yayındığı üçün və məhkəmə qərarını icra etmədiyi üçün ona qarşı cinayət işi başladıldı. O da imkanına güvənərək özünə vəkil tutdu və mənə hədə-qorxu gəldi ki, əlində nə varsa səndən alacam. Nəriman hakimlə əlbir oldu və qardaşlarımın mənim üçün aldığı, öz adıma olan evə iddia etdi. Hakim isə evin birgə nikah dövründə alındığını əsas gətirərək, 12 il ölkədə olmayan, ölmüş elan olunan bir şəxsə əlil qadına, iki uşaq anasına məxsus birotaqlı evin 1/3 hissəsini verdi. Halbuki o ev mənə öz bacım, qardaşım tərəfindən alınıb. O ev alınarkən Nəriman, ümumiyyətlə, Azərbaycanda olmayıb, hətta uzun illər evin ünvanını belə bilməyib".



Sədaqət Dadaşova

**Qeyd edək ki, cütlük hələ də birgə nikahdadır. Sədaqət Dadaşova tərəfindən boşanma üçün Nizami Rayon Məhkəməsinə müraciət edilib. Şikayətçi deyir ki, son olaylardan sonra səhhətində ciddi problemlər yaşanır:** "Məhkəmənin bu qərəzli qərarından sonra mən intihar etmək həddinə çatdım. Son günlər bir neçə dəfə vəziyyətim pisləşib və üstümə təcili yardım maşınları gəlib. On günlərlə Sabunçu rayon xəstəxanasında müalicə almışam. Səbəb isə məhkəmənin bu ədalətsiz qərarıdır. Əlil insanın başına bu cür oyun gətirmək rəvadırmı? Nərimanın məqsədi odur ki, evin özünə düşən hissəsini satsın və alimentlə əvəz eləsin. Bununla da məndən qisas almağa çalışır. İddiasında onu da yazır ki, 2004-cü ildə ölkədən getmişəm, sonra Bakıya gələndə evdə başqasından olan uşaq görmüşəm. Halbuki o, bizi atıb gedəndə mən ikinci oğluma hamilə idim. Yaxşı, əgər mənim ona xəyanət etdiyimi düşünürdüsə, niyə mənə ev alıb verirdi? Bu iddialar bir-biri ilə üst-üstə düşmür axı..."

Şikayətçi onu da qeyd etdi ki, Nəriman Rəhimov Rusiyaya getdiyi ilk illərdə bir neçə dəfə Azərbaycana qayıdıb və ikinci uşağın varlığından xəbəri olub. Hətta ikinci oğlunun körpə vaxtlarında onunla birgə çəkdirdiyi şəkillər var. Sadəcə, indi övladının başqasından olmasını iddia etməsinin səbəbi məhz həyat yoldaşından qisas almaqdır. Əlil ana qəzetimiz vasitəsilə ölkə başçısına, ölkənin birinci xanımına, Ədliyyə Nazirliyinə də müraciət edərək kömək istəyib.

**Yazıda adları çəkilən tərəflərin də mövqeyini dərc etməyə hazırıq.**

❑ **Nərgiz LİFTİYEVA,**
**"Yeni Müsavat"**

# Gəncədə 11-ci sinif şagirdi bıçaqla qətlə yetirildi

**Gəncədə 17 yaşlı oğlan küçədə bıçaqlanıb. APA xəbər verir ki, 11-ci sinif şagirdi, 2001-ci il təvəllüdlü Elnur Həsən oğlu Bağırov şəhərin Tağı Arani küçəsində ürəyindən bıçaqlanıb. E. Bağırov xəstəxanaya yerləşdirilsə də, həkimlər onu xilas edə bilməyib. Onun kim tərəfindən hansı şəraitdə bıçaqlanması hələlik məlum deyil.**

Faktla bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 35 (6924) 14 fevral 2018



# Jurnalistika niyə vaxtsız ölümlərə səbəb olur...

## Masa arxasında iş, hərəkətsizlik və ...infarkt?

**Son bir neçə ayda Azərbaycan jurnalistikasında yarpaq tökümü yaşanır. Təkcə 3 ay ərzində üç nəfər jurnalistimizi ürək xəstəliyindən itirmişik. Həmçinin fotomüxbir Fuad Həsənov da beyin qansızmasından dünyasını dəyişib. Onların cavan yaşda olması, vaxtsız ölümə tuş gəlməsini də xüsusilə vurğulamaq istəyirik. Və bu statistika istər-istəməz jurnalistikanın “erkən ölüm səbəbkarı olan peşə” kimi xarakterizə olunmasına səbəb olur. Bəli, həmkarlarımız xüsusən də ürək xəstəliyindən vaxtsız dünyasını dəyişməyə başlayır. Səbəb bir qayda olaraq icra etdikləri peşədir, ya buna spesifik hal kimi yanaşmaq lazımdır?**

Ümumən dünya üzrə statistika göstərir ki, son on ilin statistikasına görə, dünyada 1000 nəfərdən artıq jurnalist peşə fəaliyyətini yerinə yetirərkən dünyasını dəyişib - həlak olub, yaxud da sifarişlə qətlə yetirilib. Ən acınacaqlısı isə odur ki, bu qətllərdən yalnız 10 faizinin səbəbkarları cəzalandırılıb. Qalan 90 faiz qətlə görə heç kim cəzalandırılmayıb, məsuliyyətə cəlb edilməyib. BJF prezidenti dünya ictimaiyyətini jurnalistikaya qarşı hücumlara reaksiya verməyə çağırıb.

Jurnalist peşəsi dünyanın ən riskli peşələrindən biri hesab olunur. Məsələn, 2012-ci ildə vəzifə başında həlak olan jurnalistlər arasında ölüm hallarının azalmasına baxmayaraq, 2013-cü ildə bu rəqəm bir daha yüksələrək 71-ə çatıb. Bu arada Sərhədsiz Reportyorlar Təşkilatı cari ildə media mənsublarının oğurlanması halının 129% artdığını bildirib. 2013-cü ildə Asiya qitəsində təqribən 4 jurnalist, Yaxın Şərq və Şimali Afrikada isə 23 jurnalist qətlə yetirilib.

Cənubi Amerikada bu rəqəm 12 nəfər olub. 2012-ci ildə isə Cənubi Amerikada öldürülən jurnalistlərin sayı 15 nəfər olmuşdu.

Bu, jurnalistlərin öz əcəli ilə ölmələri faktına aid deyil. Amma ürək xəstəliklərindən əziyyət çəkən və bu səbəbdən dünyasını dəyişən qələm əhli də az deyil. Mütəxəssislər sübut edib ki, jurnalistlərdə ölüm riskini artıran əsas səbəb onların böyük əksəriyyətinin masa arxasındakı fəaliyyəti, yaşadıqları gərginlik və stresslə bağlıdır. Hərəkətsiz həyat bir çox xəstəliklərin, xüsusən də ürək xəstəliklərinin bir nömrəli xəbərçisi, çağırışçısıdır. Üstəgəl, əgər bu cür həyat tərzi keçirənlər siqaret də çəkirlərsə, bu zərərli vərdişlər infarkt və yüksək qan təzyiqinə səbəb olur. Bundan başqa, jurnalistlərin idmana vaxt ayıra bilməməsi də zaman keçdikcə nəfəs darlığı, nəbzdəki artımla müşayiət olunur. Bu da ciddi fəsadlar şəklində özünü göstərir.

Amma bu məsləkdən “əli bala batanlar” da az deyil. Məsələn, CNN teleşirkətinin tanınmış aparıcısı Volf Blitser 3 milyon dollar illik gəlirlə ən zəngin media işçilərinin siyahısında ən yüksək yerləri tutur. ABŞ seçkiləri zamanı 24 saat efirdən demək olar düşməyən Volf Blitser hər gün 2 saat analitik proqramında ölkədə və dünyada baş verən hadisələri təhlil edir.

ABC şirkətinin “Meet the Press” (mətbuatla görüş) proqramının aparıcısı Corc Stepanopulosun illik gəliri 5 milyon dollardır. Həftənin ən başlıca hadisələri bu proqramda ABŞ Konqresi və administrasiyanın yüksək səviyyəli nümayəndələri tərəfindən müzakirə edilir.

CNN telekanalında hər axşam canlı yayında iki saat sürən “Anderson Live” proqramının təsisçisi və aparıcısı Anderson Kuper 11 milyon dollarla Amerika teleməkanında ən yüksək gəlirə malik jurnalistlərdən biri hesab edilir. Hər axşam efirə çıxan proqram Amerikada gənc tamaşaçılardan ibarət ən böyük auditoriya toplayan proqramlar arasında göstərilir. Anderson Kuperin populyarlıq səviyyəsini onun 2012-ci ildə Nyu-Yorkda Madam Tüsso muzeyində mum heykəlinin açılışı ilə ölçmək olar.

Amerikada media sahəsinə yeni gələn jurnalistlərin maaşı ildə orta hesabla 36 min dollar kimi göstərilir. Bu isə ayda orta hesabla 3 min dollar deməkdir. Redaktorlar, teleradio şirkətlərində yazarların maaşları 60 min dollar və bundan yuxarıdır. Daha böyük media bazarında maaşlar və tələblər daha yüksəkdir. Bunlara baxmayaraq, gəlirindən asılı olmayaraq, media işçiləri cəmiyyətdə statusa malikdir.

2013-cü ildə Amerikada keçirilən bir sorğu nəticəsində məlum olub ki, insanlar üçün ən sevilməyən peşələrin sırasında jurnalistika da var. Oduncu, sağıcı-fermer, orduda sıravi əsgər, teatr aktyoru və poçtalyonla eyni sıraya qoyulan jurnalistikanın qara hərflərlə yazılmasının səbəbi onun riskli və qazancsız olmasıdır. Deməli olar ki, bütün bu peşələri cari ildə ixtisar gözləyir. Onların əksəri aşağı və orta əmək haqqı olan sənətlər sırasına daxil olsa da, ağır və əzmkar zəhmət tələb edir.

1990-cı ildən dünyada 1000-dən çox jurnalist öldürülüb. Bu barədə isə ABŞ-dakı Jurnalistləri Müdafiə Komitəsi məlumat yayıb. Məlumatda bildirilir ki, öldürülən jurnalistlərin əksəriyyəti siyasi problemləri, müharibələri və korrupsiya məsələlərini işıqlandırarkən həlak olublar. Komitə bildirir ki, jurnalistika getdikcə daha təhlükəli peşəyə çevrilir.

❑ **Sevinc TEYMURQIZI**
❑ **“Yeni Müsavat”**

# Aşıqlar Birliyi Aşıq Ələsgərin yaşı ilə bağlı məsələyə nöqtə qoydu

## **Məhərrəm Qasımlı:** “Aşıq Ələsgər ”Qoca baxdım" şeirində özü deyir: “Səksəni, doxsanı ötübdü yaşım...”

**Ermənistan Milli Arxivinə istinadən ötən ilin yayında Bakıda çap olunan məhsulda Azərbaycanın tanınmış aşıqları - Aşıq Ələsgər və digərlərinin doğum tarixlərini saxtalaşdırmaqla aşıqlar bir neçə 10 il cavanlaşdırılır. Bu “cavanlaşdırmanın” üzərindən ümumilikdə Qərbi Azərbaycanda türklərin tarixinin elə də dərin olmadığı iddiası ortaya qoyulur.**



Eyni zamanda Qərbi Azərbaycanda qədim türk adlarının erməniləşdirilməsinə yönəlik “faktlar” ortaya atılır. Kitabda istinadların 90 faizi Ermənistan Milli Arxivində saxlanıldığı iddia olunan sənədlərdir. Ötən ilin yayında dərcindən sonra böyük qalmaqallara səbəb olan kitabın müəllifi Atatürk Mərkəzinin şöbə müdiri Nazir Əhmədli, elmi redaktoru Atatürk Mərkəzinin sədri, deputat, akademik Nizami Cəfərov, rəyçisi isə AMEA-nın Folklor İnstitutunun xarici əlaqələr departamentinin rəhbəri Əli Şamildir. Kitabdakı saxtakarlıqları ifşa edən sənəd Qərbi Azərbaycan kökənli ziyalıların düzənlədiyi, doğma yurdlarından deportasiya olunmalarının 30 illiyi ilə bağlı “Yurd həsrəti” adlı tədbirdə nümayiş olunub. Tədqiqatçı Sabutay Hacıyev Rusiya Federasiyasının Dövlət Arxivindən Aşıq Ələsgərlə bağlı əldə etdiyi sənədi təqdim edərək bildirib ki, sənədə əsasən, Aşıq Ələsgər iddia edildiyi kimi, 1852-ci ildə deyil, əvvəlki tədqiqatçıların da araşdırdığı kimi, 1821-ci ildə dünyaya gəlib. Aylardır müzakirə olunan bu mövzuya **Azərbaycan Aşıqlar Birliyinin (ABB) sədri Məhərrəm Qasımlı** da münasibət bildirib. O, “Yeni Müsavat”a açıqlamasında deyib: “Aşıq Ələsgər 1821-ci ildə anadan olub, bunu dövlət belə qəbul edib, ortada olan sənədlər də, onun özünün şeiri də təsdiqləyir. Aşıqlar Birliyinin mövqeyi budur”.

**ABB sədri bildirib ki, Aşıq Ələsgərin yaşı ilə bağlı ortaya atılan iddialarla razı deyil:** “Dövlət Aşıq Ələsgərlə bağlı indiyə qədər yubileylər keçirib. Dövlət bunu edibsə, deməli, istinad etdikləri bir sənəd-sübut olub. Aləmi qarışdırmaq kimə lazımdır bilmirəm. Aşıq Ələsgər ”Qoca baxtım" şeirində özü deyir ki:

***Səksəni, doxsanı ötübdü yaşım,***
***Gor deyə tərpənir bəlalı başım.***
***Əzrayıl həmdəmim, məzar yoldaşım,***
***Daha köç təblini çal, qoca baxtım!***
***Ələsgər kəsilib səbrü aramdan,***
***Oxlayıbsan, qanlar axır yaramdan.***
***Haqq ilə qıl sövdə, əl çək haramdan,***
***Halaldan mətləbin al, qoca baxdım!***

Yeni yaşının 90-nı ötməsini özü deyir də. Bu ölümündən əvvəl dediyi şeirdir. Bilirik ki, Aşıq Ələsgər 105 yaşında dünyasını dəyişib. Yeni ortaya atılan doğum tarixi ilə hesablayanda isə Aşıq Ələsgər 74 yaşında dünyadan köçüb. Onun bu şeiri yaşı ilə bağlı ortaya atılan son iddianı təkzib edir. Azərbaycan Aşıqlar Birliyi Aşıq Ələsgərin 1821-ci ildə anadan olmasını qəbul edir".

**Aşıq Ələsgərin kötücəsi Xətai Ələsgərli də “Yeni Müsavat”a bildirib ki, kitabda babası haqda yazılanlar həqiqət deyil.**

“Nazir Əhmədli həmin o kitabda bildirir ki, Aşıq Ələsgər guya 1821-ci ildə deyil, 1852-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olub. Guya ustadın babasının adı Haqverdi, əmisi isə Allahverdi olub. N.Əhmədli Ermənistan Milli Arxivindən verilmiş məlumatlara əsaslanır. Babalarım haqqında məlumatlara kitabın 32-ci səhifəsində istinad mənbəyini belə göstərir: Ermənistan Milli Arxivi, F 227, siy 1. sax.vah 20.

Sonra qeyd edir ki, Aşıq Ələsgərin qardaşları arasında yaş fərqində ziddiyyətlər var. Öz fantaziyası ilə ailənin yaş məsələsini izah etməyə başlayır. Aşıq Ələsgərin qardaşı Məşədi Salehın və övladlarının yaşının da düzgün olmaması haqda fərziyyələr irəli sürür, bununla bağlı “sübut”lar gətirməyə və erməni saxtakarlığını əldə əsas tutaraq fərziyyələrini bəzəməyə çalışır “ deyə, X.Ələsgərli bildirib.

**Böyük sənətkarın kötücəsi fikrini belə davam etdirir:** “Həmin o erməni mənbələrinə istinad etməklə Aşıq Ələsgərin böyük oğlu Bəşirin və kiçik oğlu Talıbın da doğum tarixinin düzgün olmamasını qeyd edir. Beləliklə, bütövlükdə Ələsgər ocağının doğum tarixlərinin düzgün olmadığı iddiasını irəli sürür. Nazir Əhmədlinin yazdıqları tamamilə cəfəngiyyatdır, ən böyük saxtakarlıqdır. Bu, Aşıq Ələsgər nəslinə bir təhqirdir. Nazir Əhmədlinin dediyindən belə çıxır ki, biz öz babamızı tanımırıq. Buradan aydınca düşmənin sifarişi hiss olunur. Nazir Əhmədli, sadəcə, icraçıdır. Mən Aşıq Ələsgərin kiçik oğlu Aşıq Talıbın nəvəsiyəm. Yaxşı yadımdadır, o, 1979-cu ildə dünyasını dəyişəndə mənim 11 yaşım var idi. Mən də hər kəs kimi öz babamı tanıyıram. Babam özü yaşını yaxşı bilirdi. Dəfələrlə yaşla bağlı söhbət düşəndə öz yaşını dəqiq açıqlayırdı. Babam Aşıq Talıb da, Aşıq Ələsgər də öz babalarını yaxşı tanıyırdı. Çünki bu nəsildə nəvələrin əksəriyyəti babalarını görüb, onların söhbətlərinə qulaq asıblar. Atam İslam Ələsgərlinin adını da elə Aşıq Ələsgər özü qoyub. Nəzir Əhmədli Aşıq Ələsgərin doğum tarixini 31 il kiçildən zaman görüb ki, bu tarix ustadın övladlarının doğum tarixi ilə düzgün gəlməyəcək, başlayıb ustadın övladlarının yaşını öz arşını ilə kiçiltməyə. Hətta ustadın evləndiyi tarix və digər övladlarının doğum tarixlərini də saxtalaşdırıb. Bəşir Aşıq Ələsgərin 3-cü övladıdır. Ondan əvvəl oğlan uşaqları olub, amma dünyalarını dəyişiblər. Bəşir əkiz tayı olub. O birinin adı isə Həşim olub. Onlar 1867-ci ildə dünyaya gəlib. Həşim dünyasını dəyişib, Bəşir isə ailə qurandan sonra rəhmətə gedən qardaşının adını öz övladına qoyub. Bunu incəliklə ona görə açıqlayıram ki, Nəzir Əhmədli bilmədiyi bir işə baş qoşmaqla özünü tamamilə biabır etdiyini nəhayət ki, anlasın, başa düşsün. Erməni fitnəsinə uymasın!”

❑ **E.MƏMMƏDƏLİYEV,**
❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT

Son səhifə

N 35 (6924) 14 fevral 2018



# Anasının yanında yatan uşaqlar...

Tibb işçiləri uzun müddət öz uşaqları ilə bir yerdə yatan valideynlərlə mübarizə aparmağa çalışıblar. Ekspertlər bunu uşaqlar arasında ölüm riskinin artması ilə əlaqələndirirlər. Lakin Keyptaun Universitetinin əməkdaşı, professor Nils Berqmanın apardığı son tədqiqat pediatrların rəsmi mövqeyini dəyişdirə bilər. Berqman bəyan edir ki, uşaq üç yaşınadək valideyni ilə yatmalıdır. Müşahidələr göstərir ki, ananın sinəsində yatan körpələr daha çox yatırlar. Bu zaman onların ürəyi stresə üç dəfə az məruz qalır, gələcəkdə isə onlar şəxsiyyətlərarası əlaqələri daha asan qura bilirlər.

Öz çarpayısında yatarkən körpənin beyni yuxunun iki tipi, yeni aktiv və sakit yuxu arasında daha az keçid edir. Bu keçid isə beynin normal inkişafı üçün vacibdir. Sonralar yuxu çatışmazlığı və stress səbəbindən uşaqda pis davranış da istisna edilmir.

Ekspertin fikrincə, körpələr üçün həyatın ilk həftələrində ideal vəziyyət ananın sinəsində yatmaqdır. Sonra uşaq ana ilə bir çarpayıda 3-4 yaşınadək yatmağı davam etdirməlidir.

Alimin üzərində təcrübəsini sınaqdan keçirdiyi çarpayıda yatan 16 uşaqdan yalnız 6-da sakit yuxu qeydə alınıb və həmin yuxunun keyfiyyəti anası ilə birgə yatan uşaqlardakından xeyli aşağı olub.

# Artıq böyüklər üçün də bağça var

Novosibirsk vilayətində böyüklər üçün uşaq bağçası fəaliyyət göstərir. Bağçanı Yevgeniy Pyatkovskiy adlı şəxs açıb. Onun dediyinə görə, bu, Rusiyada ilk belə məkandır və analoqu yoxdur: "Mənim qızım böyük zövqlə bağçaya gedir. Biz dostlarımızla müzakirə apardıq və qərara gəldik ki, özümüzü axırıncı dəfə ən çox uşaq bağçası illərində xoşbəxt hiss etmişik. Və elə bu söhbətdən böyüklər üçün uşaq bağçası yaratmaq ideyası ortaya çıxdı".



Pyatkovskiy uşaq bağçası şəbəkəsini Moskva və Sankt Peterburqda açmağı planlaşdırır. Böyüklərin uşaq bağçasının menyusuna südlü sıyıq, meyvə püresi və sair yeməklər daxil edilib. Böyüklərin ən böyük əyləncəsi qumdan və plastilindən ev düzəltmək olacaq. Hər qrupda 10 nəfərin olması planlaşdırılır. Hər qrupun öz tərbiyəçisi var ki, bağça "uşaqlarının" qayğısına qalır. Bağçada bir gün qalmanın məbləği 3 min rus rublu məbləğindədir. Qeyd olunur ki, bağçaya daha çox 28-40 yaşlı kişilər, 23-30 yaşlı qadınlar maraq göstəriblər.

# Bu qız gözəllik yarışmasında bir ilkə imza atdı



Fiziki məhdudiyyətli qız ilk dəfə "Miss World" gözəllik yarışmasında iştirak edib. Bu barədə "Daily Mail" yazıb. Castin Klark adlı qız yarışmanın Avstraliyanın Adeliada ştatında keçirilən regional finalına qatılıb. 26 yaşlı Klark ştat səviyyəsində yarışmanın qalibi olmayıb və milli mərhələdə təmsil olunmağa haqq qazanmayıb. Amma o, bəyan edib ki, faktın özündən məmnundur və bu cür müsabiqələrə qatılmaqla əlillərin hüquqlarını müdafiə etmiş olur. "Əlil arabasına məhkum olmuş birinin gözəllik yarışmasında iştirak etmək cəsarəti olduqca böyük addımdır. Mən ümid edirəm ki, bu, bəzi məhdudiyyəti olan insanlara bir ümiddir. İnsanlara bir-birindən bir çox fiziki göstəriciləri fərqləndirir. Amma bununla belə, biz gözəlik". Avstraliyalı bunu özündən əmin şəkildə deyib.

Xəbərdə həmçinin qeyd olunur ki, qız 2015-ci ildən əlildir. Amma onun hansı səbəbdən əlil olması bilinmir. Yaxın zamanda Klark xeyriyyə fəaliyyəti ilə məşğul olacaq. O, "Children's Charity" təşkilatı ilə əməkdaşlıq edəcək.




QOÇ - Astroloji göstəricilər daha çox şəxsi büdcənizin artacağından xəbər verir. Hətta bunun naminə digər məsələləri ikinci plana da sala bilərsiniz. Çünki ulduzlar gələn həftəyə imkanlı şəkildə qədəm qoyacağınızı bildirir.

BUĞA - İstər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə ümumi axar ürəyinizcə olacaq. Başlıca probleminiz olan maliyyə çətinlikləri isə qismən də olsa, qaydasına düşəcək.

ƏKİZLƏR - Günboyu qazanc əldə etmək üçün yaxşı imkanlarınız olacaq. Bu səbəbdən nahara qədər yarımçıq işlərinizi yekunlaşdırmağa çalışın. Nəzərə alın ki, bu ərəfə daxili tərəddüdlərinizi kifayət qədər səngidəcək.

XƏRÇƏNG - Saat 10-12 arası ətrafınızda, həmçinin daxilinizdə ümumi bir gərginlik hökm sürəcək. Bu isə ümumi ovqatınızı aşağı sala bilər. Yaxşı olar ki, həmin müddəti evdə keçirəsiniz. Sonrakı saatlar çox düşərlidir.

ŞİR - Bu təqvimi romantik tərzdə keçirmək istəyirsinizsə, aldığınız dəvətlərə "yox" deməyin. Çünki evdə qalmaq sizin üçün darıxdırıcı keçə bilər. Yeni işlərlə bağlı müəyyən səfərlər etmək olar.

QIZ - Perspektivlərinizin reallaşması üçün bir qədər mürəkkəb gündür. Hətta vəzifə pilləsində müəyyən uğursuzluq ehtimalınız da var. Odur ki, hər bir situasiyaya təmkinlə yanaşmağa çalışmalısınız.

TƏRƏZİ - İxtiyarınızda olan gün sizin üçün çox sakit keçəcək. Amma kiməsə borc vermək, ümumiyyətlə riskli sövdələşmələrə getmək uğurlu deyil. Bu gün sənədləşdirmə işlərinizi də qaydasına salın.

ƏQRƏB - Ümumi məziyyətlərinə görə düşərli gün hesab etmək olar. Amma nəzərdə tutduğunuz ideyaları həyata keçirmək üçün mütləq risk etməlisiniz. Onsuz da əksər işləriniz risklər hesabına reallaşır.

OXATAN - Qarşınızda uğurlu bir gün durur. Bu baxımdan paralel olaraq bir neçə işdə fəaliyyət göstərə bilərsiniz. Hadisələrin müsbət inkişafı daha şanslı olmağınıza şərait yaradacaq.

OĞLAQ - Ümumi ab-hava əsəblərinizə mənfi təsir göstərsə də, bu, qarşınıza qoyduğunuz məqsədlərə yetişməkdə sizə mane olmayacaq. Hərdəmxəyallıq, acıdillilik etməyin. Yeni işlə bağlı uzaq dəvətlərə aludə olmayın.

SUTÖKƏN - Ulduzlar saat 12-yə qədər ayıq-sayıqlığınızı artırmağınızı məsləhət görür. Əlalxüsus da fəaliyyət zəminində baş verən bütün proseslərdə neytrallıq nümayiş etdirməlisiniz. Sonrakı saatlarda isə maraqlı hadisələrlə rastlaşacaqsınız.

BALIQLAR - Kosmik ahəngə uyğunlaşmağı bacarsanız, qayğılarınız da azalacaq. Qlobal problemlərinizin həll olunması üçün canfəşanlığınızı artırmalısınız. Bu addımınızı dəstəkləyən Göy qübbəsi bir çox məsələlərdə sizə yardımçı olacaq.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Məhkuma telefon aparan göyərçinlər



Braziliya türməsinin gözətçiləri məhkumlardan birinə mobil telefon aparan göyərçini yaxalayıblar. Bu barədə UPI agentliyi məlumat yayıb. Braziliyanın ədliyyə qurumlarından verilən məlumata görə, insident Nilton Silva türməsində, 10 fevralda baş verib. Franku-da-Roşa şəhərində yerləşən həbsxanada bu kimi hallar normaya çevrilib. Nəzarətçilər görüblər ki, məhkumlar göyərçin tutublar və həmin göyərçinə nəsə geyindiriblər. Onlar dərhal quşu tutub, ona jilet geyindirildiyini, jiletin cibində isə mobil telefon və batareya olduğunu görüblər. Oktyabr ayında isə hind hərbçiləri Pakistandan təhdid xarakterli məktub daşıyan poçt göyərçini yaxalayıblar. Fevral ayında göyərçin qaçmağa cəhd etsə də, onu yaxalayaraq, yenidən qəfəsə salıblar.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100